Qarabağ Dirçəliş Fondu

QARABAĞ DİRÇƏLİŞ FONDUNUN

# FƏALİYYƏTİ ÜZRƏ HESABAT

2021-2023

MÜNDƏRİCAT


| | |
|---|---|
| **"Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı** | **02** |
| **Giriş** | **04** |
| **1. Fond haqqında** | **06** |
| 1.1. Fondun missiyası, məqsədləri və dəyərləri | 07 |
| 1.2. Korporativ idarəetmə prinsipləri | 07 |
| 1.2.1. Səlahiyyətlərin bölgüsü | 07 |
| 1.2.2. Struktur | 09 |
| 1.2.3. Daxili və kənar (müstəqil) audit | 10 |
| 1.2.4. Risklərin idarə olunması və komplayns | 10 |
| 1.2.5. Etik davranış | 10 |
| 1.2.6. Hesabatlılıq | 10 |
| 1.2.7. İnstitusional inkişaf | 10 |
| 1.3 İanə imkanları | 11 |
| **2. Maliyyə göstəriciləri** | **14** |
| 2.1. İcmal | 15 |
| 2.2. Müstəqil auditorun hesabatları | 17 |
| 2.3. Maliyyə hesabatları | 18 |
| 2.3.1. Maliyyə vəziyyəti haqqında hesabat | 18 |
| 2.3.2. Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat | 19 |
| 2.3.3. Kapitalda dəyişikliklər haqqında hesabat | 20 |
| 2.3.4. Pul vəsaitinin hərəkəti haqqında hesabat | 21 |
| 2.4 İnvestisiya fəaliyyəti | 22 |
| 2.4.1. Fondun investisiya siyasəti | 22 |
| 2.4.2. Fondun investisiyalar və aktivlərin bölgüsü ilə bağlı qərarvermə meyarları | 23 |
| 2.4.3. Qiymətli kağızlarla bağlı investisiya qərarlarının verilməsi prosesi | 24 |
| 2.4.4. Məsuliyyətli qərarların qəbulu | 25 |
| 2.4.5. Sabit gəlirli maliyyə alətlərinə investisiyalar | 26 |
| 2.4.6. Hesablanmış faiz gəlirləri | 27 |
| 2.4.7. Fondun investisiya fəaliyyətinin ölkə iqtisadiyyatına müsbət təsiri | 28 |
| **3. Fondun fəaliyyətinin strateji istiqamətləri** | **30** |
| **4. Maliyyə dəstəyi** | **32** |
| **5. İnformasiya təminatı, maarifləndirmə və təşviqat işləri** | **38** |
| 5.1. Kommunikasiya | 39 |
| 5.2. "Karabakh.Center" internet resursu | 43 |
| 5.3. "Qarabağ Dirçəliş Fondunun Dostları" işgüzar platforma | 46 |
| 5.4. Maarifləndirmə | 48 |
| 5.5. "Qarabağ Gecəsi" xeyriyyə konserti | 55 |
| **6. Tərəfdaşlıq** | **56** |

# "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan xalqı böyük Zəfərlə ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoydu. Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir.

Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaqdır.

Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Bu sahədə bütün potensialın fədakarlıqla səfərbər edilməsi ölkəmizin inkişafında birgə uğur salnaməsi yaradaraq, qələbəmizi daha da parlaq edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə qərara alıram:

1. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılsın.

2. Müəyyən edilsin ki:
2.1. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs (bundan sonra – Fond) Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində informasiya təminatını, maarifləndirmə və zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir;
2.2. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün Müşahidə Şurası yaradılır;
2.3. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən – sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

3. Fondun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:
3.1. Azərbaycan Respublikasının Prezidentinə:
3.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;
3.1.2. Fondun strukturunun təsdiqi;
3.1.3. Fondun idarəetmə orqanlarının yaradılması;
3.1.4. Fondun Müşahidə Şurası üzvlərinin, İdarə Heyəti sədrinin və sədrin iki müavininin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
3.1.5. Fondun ləğvi və yenidən təşkili;
3.2. Fonda:
3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında"

Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.
4. Fondun vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:
4.1. fiziki və hüquqi şəxslərin ianələri;
4.2. qrantlar;
4.3. qanunla qadağan olunmayan digər mənbələr.

5. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 15 gün müddətində Fondun nizamnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:
6.1. Fondun dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;
6.2. dövlət qeydiyyatına alındığı gündən Fondun inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
7. Müəyyən edilsin ki, Fond dövlət qeydiyyatına alınanadək bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulmuş vəsait Fondun xüsusi xəzinə və bank hesablarında toplana bilər.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:
8.1. Fond fəaliyyətə başlayanadək bu Fərmanın 7-ci hissəsinə uyğun olaraq Fondun vəsaitinin xüsusi xəzinə və bank hesablarında toplanmasını təşkil etsin;
8.2. Fondun fəaliyyətinin təşkili və təmini üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;
8.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 yanvar 2021-ci il.

# Giriş

**Hörmətli oxucular,**

Diqqətiniz üçün təqdim olunan bu sənəd, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun parlaq qələbəsindən bir neçə ay sonra yaradılan Qarabağ Dirçəliş Fondunun tarixində ilk hesabatıdır.

Bu gün ölkəmiz həqiqətən tarixi hadisələr yaşayır – uzun illər davam edən işğaldan sonra Qarabağda yenidən həyat canlanır. Kəlbəcərdən Füzuliyə qədər işğaldan azad edilmiş ərazilər boyunca genişmiqyaslı işlər görülür – minlərlə kilometr uzunluğunda yollar çəkilir, infrastruktur bərpa olunur, yaşayış binaları və müəssisələr tikilir, hava limanları və dəmir yolları inşa edilir.

Əsas vəzifəsi işğaldan azad edilmiş torpaqların bərpasına maliyyə dəstəyi göstərmək olan bir qurum olaraq Fond yarandığı gündən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağın dirçəlişi istiqamətində irimiqyaslı layihələr həyata keçirən komandaya qoşulmuşdur.

Ötən müddət ərzində Fond tərəfindən işğaldan azad olunmuş ərazilərdə icra olunan müxtəlif bərpa və yenidənqurma işlərinə maliyyə dəstəyinin ayrılması, quruculuq işlərinin və ianəçiliyin təbliği, eyni zamanda erməni işğalçı qüvvələrinin ölkəmizə vurduğu külli miqdarda ziyan barədə obyektiv məlumatların geniş ictimaiyyətə çatdırılması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir.

Fondun nümayəndələri gənclərdən tutmuş rəsmilərə və biznes nümayəndələrinə qədər müxtəlif steykholder qrupları ilə onlarla görüş keçirmişdir. Görüşlər həm təkbətək, həm də Fondun və digər aidiyyəti qurumların təşkil etdiyi konfranslar və dəyirmi masalar çərçivəsində baş tutmuşdur.

Sosial şəbəkələrdə və digər media platformalarında kommunikasiyaya xüsusi diqqət yetirilmişdir ki, bununla da Fondun ismarışları həm Azərbaycanda, həm də ölkə xaricində yüz minlərlə izləyicinin diqqətinə çatdırılmışdır.

Müşahidə Şurasının yaxın illər üçün müəyyənləşdirdiyi strateji hədəflərə (prioritetlərə) uyğun olaraq Fondun dayanıqlı maliyyə institutuna çevrilməsinə xüsusi diqqət yetirilmişdir. Fondun 2023-cü ilin sonuna risksiz qiymətli kağızlar üzrə investisiya portfeli 990,824,700 AZN təşkil etmiş və təkcə 2023-cü ildə 47,195,993 AZN həcmində əlavə maliyyə gəliri təmin edilmişdir. Qeyd olunmalıdır ki, 2021 və 2022-ci illərdə maliyyə gəliri müvafiq olaraq 9,198,829 və 34,454,187 manat təşkil etmişdir.

Bu gəlir həm Fondun inzibati xərclərini, həm də ötən illərdə həyata keçirdiyimiz bütün layihələr üzrə xərcləri ödəməyə imkan vermişdir.

Hazırda sərbəst vəsaitlərin Müşahidə Şurası tərəfindən təsdiq edilmiş İnvestisiya siyasətinə uyğun olaraq yerləşdirilməsi davam etdirilir və 2024-cü ildə mənfəətin artımı gözlənilir.

Eyni zamanda, 31 dekabr 2023-cü il tarixinə Fondun cəmi aktivlərinin həcmi 31 dekabr 2022-ci il tarixi ilə müqayisədə 19% artaraq 1.48 milyard AZN təşkil etmişdir.

Qeyd edək ki, hesabata Fondun fəaliyyəti barədə ətraflı məlumatla bərabər kənar auditorumuz "PwC Azərbaycan" şirkətinin 2021, 2022 və 2023-cü illər üzrə rəyləri və müvafiq maliyyə hesabatları da daxil edilmişdir.

Əminik ki, növbəti illərdə Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə ciddi dəstək verəcək və qarşıya qoyulan bütün vəzifələrinin öhdəsindən layiqincə gələrək dayanıqlı quruma çevriləcəkdir.

Bizim uğurumuz həm də ilk gündən Fonda dəstək olan ianəçilərimizin uğurudur.

Fürsətdən istifadə edərək, həmrəylik göstərdiklərinə və Qarabağın dirçəlişinə öz töhfələrini verdiklərinə görə ianəçilərimizin hər birinə təşəkkür edirik.

Əminik ki, biz birlikdə Qarabağı daha gözəl bərpa edəcəyik!




# FÜZULİ ŞƏHƏRİNDƏ SALINACAQ MƏRKƏZİ PARKIN ƏRAZİSİNİN TİKİLİ QALIQLARINDAN VƏ DİGƏR TULLANTILARDAN TƏMİZLƏNMƏSİ

Layihə Qarabağ Dirçəliş Fondunun sifarişi əsasında həyata keçirilir

Qarabağ
Dirçəliş
Fondu

01

# FOND HAQQINDA

# 1.1. Fondun Missiyası, Məqsədləri və Dəyərləri

## Missiyamız

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə görülən işlərlə bağlı ölkə daxilində və ölkə xaricində informasiya təminatını, maarifləndirmə və zəruri təşviqat işlərini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılmışdır.

## Məqsədlərimiz

### Sabit artım

Köçürülən ianələrin daimi artımı hesabına Fondun aktivlərinin davamlı artmasına nail olmaq və sərbəst vəsaitlərin idarə olunması nəticəsində əldə olunan mənfəət hesabına həyata keçirilən layihələrin maliyyələşdirilməsini təmin etmək.

### Dayanıqlıq

İşğaldan azad edilmiş ərazilərin dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsinə dəstək göstərən, öz fəaliyyətində müasir sosial, ətraf mühit və korporativ idarəetmə (ESG) prinsiplərinə əsaslanan dayanıqlı Fonda çevrilmək.

### "Dövlət – Biznes - Cəmiyyət" sinergiyası

Müxtəlif steykholderləri "Qarabağın dirçəlişi" ideyası ətrafında sıx birləşdirməklə, bu mühüm işə Azərbaycan biznesinin, cəmiyyətinin və diasporunun geniş resurslarının cəlb edilməsi məqsədi ilə qarşılıqlı əlaqələr qurmaq və idarə etmək.

## Dəyərlərimiz

- Həmrəylik
- Şəffaflıq
- Sosial məsuliyyət
- Müxtəliflik
- Təvazökarlıq

# 1.2. Korporativ idarəetmə prinsipləri

Qarabağ Dirçəliş Fondu olaraq biz mütərəqqi korporativ idarəetmə standartlarına riayət etməyə, o cümlədən bütün əməliyyatlarımızda şəffaflığın, hesabatlılığın və etik davranışın təmin edilməsinə sadiqik.

Bu öhdəlik Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiqlənən Fondun Nizamnaməsinin 4.1-ci bəndində öz əksini tapmışdır.

Fondun təsisçisinin səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinə məxsusdur, idarəetmə səlahiyyətləri isə Müşahidə Şurası ilə İdarə Heyəti arasında bölüşdürülmüşdür.

Fondun fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə həm daxili audit xidmətinin fəaliyyəti, həm də hər il müstəqil kənar auditorun cəlb edilməsi nəzərdə tutulur.

Həmçinin geniş ictimaiyyət qarşısında hesabatlılıq prinsipinə sadiq qalaraq, Fond hər il müvafiq maliyyə hesabatlarını rəsmi internet səhifəsi və KİV-lər vasitəsi ilə dərc edir.

## 1.2.1. Səlahiyyətlərin bölgüsü

Müasir korporativ idarəetmənin prinsiplərinə uyğun olaraq, Fondla və onun fəaliyyəti ilə bağlı bütün qərarların verilməsi üzrə səlahiyyətlər aşağıdakı qaydada bölünür:

### Azərbaycan Respublikasının Prezidenti

Fondun Nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi, Fondun strukturunun təsdiqi, Fondun idarəetmə orqanlarının yaradılması,

Fondun Müşahidə Şurası üzvlərinin, İdarə Heyəti sədrinin və sədrin iki müavininin vəzifəyə təyin və vəzifədən azad edilməsi, Fondun ləğvi və yenidən təşkili səlahiyyətləri Azərbaycan Respublikası Prezidentinə məxsusdur.

## Müşahidə Şurası

Fondun Nizamnaməsinin 4.2-ci bəndinə əsasən, Fondun idarəetmə orqanları Müşahidə Şurası (bundan sonra – Şura) və İdarə Heyətidir.

Şura Fonda ümumi rəhbərliyi və nəzarəti həyata keçirir və Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 9 (doqquz) üzvdən ibarətdir.

Şuranın sədri üzvlər sırasından 3 (üç) il müddətinə seçilir. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir və qərar qəbul etməkdə müstəqildir.

Fondun Nizamnaməsinə əsasən Şura Fondun inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını müəyyən edir, maliyyə planlaşdırmasını və büdcəsini təsdiq edir, kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir, eyni zamanda Fondun daxili audit komitəsinin fəaliyyətinə nəzarət edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 4 yanvar 2021-ci il tarixli Sərəncamı ilə Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibini aşağıdakı kimi təsdiq etmişdir.

## Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurası



**Mikayıl Cabbarov**
Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Müşahidə Şurası haqqında ətraflı məlumat



**Muxtar Babayev**
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri



**Rövşən Rzayev**
Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri



**Tural Gəncəliyev**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı



**Fatma Yıldırım**
Azərbaycan Respublikası Milli Məclisinin deputatı



**Kamal Abdulla**
Azərbaycan Dillər Universitetinin rektoru



**Ədalət Muradov**
Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru



**Fərhad Bədəlbəyli**
Bakı Musiqi Akademiyasının rektoru



**Alim Qasımov**
Azərbaycan Respublikasının Xalq artisti

## İdarə Heyəti

Fondun cari fəaliyyətinə rəhbərliyi İdarə Heyəti həyata keçirir.

İdarə Heyəti 3 (üç) üzvdən – Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədrdən və onun 2 (iki) müavinindən ibarətdir.

İdarə Heyəti Fondun fəaliyyətini təşkil edir, Fondun strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir, Fondun vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir.

Azərbaycan Respublikasının Prezidentinin 4 fevral 2021-ci il tarixli Sərəncamı ilə Rəhman Tofiq oğlu Hacıyev Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri vəzifəsinə təyin olunmuşdur.

## 1.2.2. Struktur

Qarabağ Dirçəliş Fondunun strukturu Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 yanvar tarixli Fərmanı ilə aşağıdakı kimi təsdiq edilmişdir:

1. Qarabağ Dirçəliş Fondunun Aparatı.
2. Qarabağ Dirçəliş Fondunun filialları və nümayəndəlikləri.

Aparatın strukturu Fondun Nizamnaməsi, korporativ idarəetmə standartları və beynəlxalq maliyyə institutlarının korporativ idarəetmə standartları əsas götürülərək Müşahidə Şurasının 21 Aprel 2021-ci il tarixli qərarı ilə aşağıdakı kimi təsdiq olunmuşdur:

# Qarabağ Dirçəliş Fondunun Strukturu



## 1.2.3. Daxili və kənar (müstəqil) audit

Fondun Nizamnaməsinə əsasən Fondda daxili audit bölməsinin fəaliyyəti nəzərdə tutulmuşdur.

Fondun daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək Müşahidə Şurasının səlahiyyətindədir.

Eyni zamanda, Fond öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün hər il kənar auditoru cəlb edir.

Fondun kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək, kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək, Fondun maliyyə hesabatını və fəaliyyətinə dair hesabatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək Müşahidə Şurasının əsas vəzifələrindən biridir.

## 1.2.4. Risklərin idarə olunması və komplayns

Fondun fəaliyyətində daxili nəzarətin və risklərin idarə olunmasının təmin edilməsi məqsədilə Risklərin idarə edilməsi və monitorinqi şöbəsi yaradılmışdır.

Eyni zamanda, müvafiq komissiyalar və struktur bölmələri vasitəsilə komplaynsa daimi nəzarət həyata keçirilir.

## 1.2.5. Etik davranış

Əməkdaşların işdə və işdən kənar davranışını, Fondun əmlakına münasibəti, konfidensiallıq rejiminin və qanunçuluğun qorunması kimi müxtəlif məsələləri əhatə edən iki fundamental sənəd - “Etik davranış qaydaları” (Kodeks) və “Rüşvətxorluq və korrupsiya əleyhinə Siyasət” Müşahidə Şurasının qərarı ilə təsdiq olunub.

Bu sənədlər etimad və məsuliyyət mədəniyyətini təşviq etmək, maraqların toqquşmasının qarşısını almaq, hər hansı korrupsiya əməllərindən qorunmaq və bütün qarşılıqlı əlaqələrimizdə etik davranışa sadiqliyimizi nümayiş etdirmək məqsədi ilə qəbul olunmuşdur.

## 1.2.6. Hesabatlılıq

Fond qanunvericiliklə müəyyən olunan hesabatlılıq ilə yanaşı cəmiyyət qarşısında da öz məsuliyyətini hiss edir.

Fondun həyata keçirdiyi tədbirlər, layihələrin icra vəziyyəti, audit nəticələri kimi məlumatların mütəmadi olaraq ictimaiyyətlə bölüşülməsi, eyni zamanda Fondun rəsmi veb-saytında hesabatların açıq formada yerləşdirilməsi və əlçatanlığı bunun əyani sübutudur.

## 1.2.7. İnstitusional inkişaf

Ötən dövr ərzində Fondun Müşahidə Şurasının 6 iclası keçirilmişdir. Həmin iclaslarda Fondun Nizamnaməsi ilə üzərinə düşən fəaliyyət istiqamətləri üzrə, həmçinin korporativ idarəetmə standartlarına uyğun təşkilati strukturu ilə bağlı bir sıra məsələlər müzakirə edilərək qərarlar qəbul olunmuşdur.

**Müşahidə Şurasının iclaslarında aşağıdakı məsələlər müzakirə edilərək qərarlar qəbul edilmişdir:**

- Fondun Aparatının strukturu, Ştat cədvəli və Əməkhaqqı fondu;
- Maddi-texniki baza və əməliyyat büdcəsi;
- 2021-ci il üzrə fəaliyyət və tədbirlər planı;
- Fondun fəaliyyətinin strateji istiqamətləri (2022-2025);
- “Qrantın verilməsi Qaydaları”;
- “Rüşvətxorluq və korrupsiya əleyhinə siyasət”;
- “Valyuta vəsaitinin saxlanılması və idarə edilməsinin Qaydaları”;
- Kənar auditorun seçilməsi (2021-ci, 2022-ci və 2023-cü illər üzrə);
- Fondun 2022-ci il üzrə büdcəsi;
- “Əməkdaşların etik davranış Qaydaları” və “Etika üzrə Komissiya”nın tərkibi;
- Müşahidə Şurasının Katibliyinin Əsasnaməsi;
- Fondun 2023-cü il üzrə büdcəsi;
- Ştat cədvəli, vəzifə maaşına əlavələrin tətbiq edilməsi qaydası və əməyin ödənişi fondu;

• “Qarabağ Dirçəliş Fondunun büdcəsinin tərtibi və icrası” haqqında Qaydalar;
• “Fondun vəsaitlərinin yerləşdirilməsi” haqqında Qaydalar;
• “Qarabağın səsi” kommunikasiya strategiyası.

**İdarə Heyətinin sədri tərəfindən aşağıdakı sənədlər təsdiq edilərək icraya yönəldilmişdir:**

• “İşçilərin tam maddi məsuliyyəti” müqaviləsi;
• Möhür və ştampların istifadə və saxlanma qaydaları;
• “Məxfilik və məlumatların açıqlanmaması” müqaviləsi;
• Fonddaxili geyim qaydaları;
• Daxili idarəetmə hesabatlarının hazırlanması üzrə təlimat;
• Fondun struktur bölmələrinin Əsasnamələri;
• Korporativ üslub, loqotip və Fondun atributlarından istifadəyə dair təlimat;
• Fondda işə qəbul və işdən azad olma haqqında təlimat;
• Vətəndaşların qəbulu haqqında təlimat;
• Fondun ISO 9001:2015 standartı üzrə keyfiyyətə dair siyasəti.

## 1.3. İanə imkanları

Fond yarandığı gündən etibarən minlərlə həmvətənimiz, yüzlərlə şirkət həmrəylik nümayiş etdirərək işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə Fonda nağdsız qaydada ianə edib. Bu işğaldan azad olunan ərazilərimizin dirçəlişi yolunda vacib olan həmrəyliyimizin birbaşa təzahürüdür.

İanə prosesinin sadə, rahat və əlçatan olması məqsədilə, Fond mütəmadi olaraq ianələrin edilməsi infrastrukturunun inkişaf etdirilməsinə xüsusi diqqət ayırır. Ötən dövrlər ərzində Fond ianələrin müxtəlif üsullarla edilməsi imkanlarını genişləndirib .

### Fondun rəsmi saytı(qdf.gov.az) vasitəsi ilə

#### Öz adından ianə

Qarabağın bərpasına töhfə vermək istəyən hər bir şəxs Qarabağ Dirçəliş Fondunun rəsmi saytına daxil olaraq “Kartla ianə” bölməsini seçməklə bank kartları vasitəsilə Fonda ianə edə bilər.

#### İanəni hədiyyə et

Eyni zamanda istənilən şəxs yaxınlarının və dostlarının adından ianə etməklə Novruz bayramı, 28 May Müstəqillik Günü, Zəfər bayramı, 8 mart Beynəlxalq Qadınlar Günü, Həmrəylik günü və Yeni il, Doğum günü, Bilik Günü kimi əlamətdar günlər münasibətilə Fonda ianə edə bilər. Bunun üçün ianə edən şəxs Fondun veb-səhifəsində “İanəni hədiyyə et” bölməsinə daxil olub təbrik etmək istədiyi şəxsin adını qeyd edib daha sonra ianə edəcəyi vəsaitin məbləğini göstərməlidir.

#### Ağac ianəsi

Qeyd edək ki, pul vəsaiti ilə yanaşı işğaldan azad edilmiş ərazilərin ekoloji tarazlığının bərpasına töhfə vermək məqsədilə ağac da ianə etmək mümkündür. Bunun üçün ianə edilən zaman müvafiq formada pulun əvəzinə istənilən ağac sayını seçmək kifayətdir.

#### Unikal ianə sertifikatı

Fondun rəsmi saytında ianə edildikdən sonra müvafiq məbləği və ya ağac sayını əks etdirən unikal “İanə sertifikatı” əldə etmək imkanı da yaradılmışdır. Hər sertifikatda unikal QR kod əks olunur. Bu kodu skan etməklə sertifikatın orijinal olduğunu yoxlamaq mümkündür.

RƏSMİ SAYT VASİTƏSİ İLƏ İANƏ HAQQINDA
**ƏTRAFLI MƏLUMAT**

## Bank köçürmələri vasitəsi ilə

Qarabağ Dirçəliş Fonduna bank köçürmələri vasitəsi ilə ianə etmək mümkündür.

Bunun üçün Fondun rəsmi saytına daxil olaraq Azərbaycan Beynəlxalq Bankı, Kapital Bank və Paşa Bank-da Fondun cari hesabları üzrə rekvizitləri barədə məlumatları əldə etmək və həmin hesablara bank köçürməsi üsulu ilə ianə etmək mümkündür.

BANK KÖÇÜRMƏLƏRİ HAQQINDA
**ƏTRAFLI MƏLUMAT**

## SMS vasitəsi ilə

İanə prosesinin sadələşdirilməsi üçün Fond SMS vasitəsilə ianələrin qəbulu sistemini tətbiq edib. Belə ki, Fondun tərəfdaşlarından olan "Azercell", "Bakcell" və "Azerfon" operatorlarının abunəçiləri 1, 3, 5, 10, 20, 50 açar sözlərini 8112 qısa nömrəsinə göndərməklə qeyd olunan məbləğlərdə Fonda ianə edə bilərlər.

## Ödəniş terminalları vasitəsi ilə

Şəhərin müxtəlif ərazilərində quraşdırılan "MilliÖn" və "E-manat" terminallarından istifadə edərək işğaldan azad edilmiş ərazilərin bərpasına dəstək vermək məqsədilə Fonda ianə etmək olar.

- MilliÖn;
- E-manat

## Onlayn ödəniş platformaları vasitəsi ilə

Onlayn ödəniş platformalarından istifadə etməklə də Fonda ianə etmək olar. Belə ki, istənilən şəxs aşağıdakı platformalara daxil olub Fondun adını seçdikdən sonra müvafiq əməliyyatları yerinə yetirərək Fonda ianə edə bilər.

- Hesab.az – Goldenpay; - Keçid
- E-pul - Ode.az; - Keçid
- Asanpay - E-gov.az. - Keçid
- Kassam.az - Keçid

## Bankların mobil tətbiqləri vasitəsi ilə

Aşağıda qeyd olunan bankların mobil tətbiqləri vasitəsi ilə də Fonda ianə etmək mümkündür.

- PASHA Bank;
- Kapital Bank;
- Azərbaycan Beynəlxalq Bankı;
- Unibank;
- Bank Respublika;
- Ekspress Bank;
- Yelo Bank.

BÜTÜN İANƏ İMKANLARI HAQQINDA
**ƏTRAFLI MƏLUMAT**



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA FÜZULİDƏ YARADILACAQ MƏRKƏZİ PARKIN ƏRAZİSİNDƏ**

Layihə Qarabağ Dirçəliş Fondunun sifarişi ilə həyata keçirilir

Qarabağ
Dirçəliş
Fondu

02
# MALİYYƏ GÖSTƏRİCİLƏRİ

## 2.1. İcmal

Qarabağ Dirçəliş Fondunun çoxşaxəli fəaliyyətini əks etdirən əsas göstəricilərdən biri də onun maliyyə göstəriciləridir.

Ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan Fondun vəsaitləri fiziki və hüquqi şəxslərin ianələri, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

Fəaliyyətinin ilk ilində - 2021-ci ildə Fondun ümumi gəliri 901,405,135 AZN olmaqla, ianələrdən əldə edilən gəlir 892,206,306 AZN (98,98%) təşkil etmişdir.

2022-ci ildə Fondun ianə gəlirləri 314,519,877 AZN (90,13%) olmaqla, ümumi gəlirləri 348,974,064 AZN təşkil etmişdir. 2023-cü ildə isə Fondun ianə gəlirləri 206,485,811 AZN (81.40%) olmaqla, ümumi gəlirləri 253,681,804 AZN təşkil etmişdir.

İanə olunan məbləğin 95%-dən çox şirkətlər və iri sahibkarların, qalan hissəsi isə fiziki şəxslər və dövlət qurumlarının payına düşür.

Eyni zamanda uzunmüddətli və davamlı əlavə dəyər yaratmaq məqsədilə Fond ianə hesabına formalaşan sərbəst vəsaitlərini Azərbaycan Respublikası Maliyyə Nazirliyinin risksiz uzun və qısamüddətli dövlət istiqrazlarına yerləşdirməkdədir.

*Azərbaycan manatı ilə*

**FONDUN GƏLİRLƏRİ**

| | 2023 | 2022 | 2021 | Cəmi |
|---|---|---|---|---|
| İanə gəlirləri | 206,485,811 | 314,519,877 | 892,206,306 | 1,413,211,994 |
| Maliyyə gəlirləri | 47,195,993 | 34,454,187 | 9,198,829 | 90,849,009 |
| **Fondun cəmi gəlirləri** | **253,681,804** | **348,974,064** | **901,405,135** | **1,504,061,003** |



*Azərbaycan manatı ilə*

| Fondun aktivləri | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **2021** | **ÜMUMİDƏ PAYI** | **2022** | **ÜMUMİDƏ PAYI** | **2023** | **ÜMUMİDƏ PAYI** |
| Borc qiymətli kağızlarına investisiyalar | 316,807,324 | 35.58% | 662,640,179 | 53.51% | 990,824,700 | 67.08% |
| Nağd pul və onun ekvivalentləri | 573,162,502 | 64.37% | 571,086,799 | 46.13% | 481,154,947 | 32.58% |
| Digər aktivlər | 478,635 | 0.05% | 4,396,988 | 0.36% | 5,085,597 | 0.34% |
| **Cəmi** | **890,448,461** | **100%** | **1,238,123,966** | **100.00%** | **1,477,065,244** | **100.00%** |




Fondun aktivləri əsasən borc qiymətli kağızlarına investisiyalardan, nağd pul və onun ekvivalentlərindən ibarətdir.

2023-cü ildə borc qiymətli kağızlarına investisiyalar əvvəlki il ilə müqayisədə 328.2 milyon manat və ya 49.5% artaraq 990.8 milyon manata çatıb.

Qeyd edilməlidir ki, 2021, 2022 və 2023-cü illərdə Fond ianələrdən əldə olunan vəsaitin toplam 990,824,700 AZN məbləğini Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət istiqrazlarına yerləşdirməklə müvafiq illər ərzində 90,849,009 AZN əlavə gəlir əldə etmişdir.

Qeyd edək ki, Fond dövlət istiqrazlarından 2021-ci ildə əlavə 9,198,829 AZN, 2022-ci ildə 34,454,187 AZN, 2023-cü ildə isə 47,195,993 AZN maliyyə gəliri əldə etmişdir. Beləliklə, 2023-cü ildə əldə edilən gəlir keçən ilin göstəriciləri ilə müqayisədə 37%-ə yaxın artmışdır.

Fondun yaradılmasının ilk ilindən bəri ianələrin azalması fonunda maliyyə gəlirləri beş dəfədən çox artıb. Nəticədə, maliyyə (investisiya) gəlirlərinin Fondun ümumi gəlirlərində payı 1%-dən 18.60%-ə qədər artıb. Bu əhəmiyyətli artım Fondun maliyyə fəaliyyətinin effektivliyini və sərəncamında olan resurslardan gəlir əldə etmək imkanlarının böyük olduğunu göstərir.

Hazırda Fondun fəaliyyətinin maliyyələşdirilməsi (həyata keçirilən layihələr və əməliyyat xərcləri daxil olmaqla) məhz investisiyalardan əldə edilən mənfəət hesabına həyata keçirilir. Növbəti illərdə bu gəlir daha da artacaq ki, bu da Fondun fəaliyyətinin səmərəliliyinin və imkanlarının getdikcə artması deməkdir.

2023-cü ildə fondun aktivlərinin 19% və ya 238.9 milyon manat artaraq 1.48 milyard manata çatması onun maliyyə fəaliyyətinin effektiv olduğunu göstərir.

Fondun qarşısında duran əsas məqsədlərdən biri fəaliyyətində şəffaflığın təmin olunmasıdır. Məhz bu səbəbdən Fondun Müşahidə Şurasının 20 dekabr 2021-ci il, 17 mart 2023 və 24 yanvar 2024-cü il tarixli qərarları ilə dünyanın peşəkar xidmətlər göstərən ən iri şəbəkələrindən biri olan "PwC" şirkəti 2021, 2022 və 2023-cü illər üzrə Fondun kənar auditoru kimi təsdiq olunmuşdur.

2021, 2022 və 2023-cü illər üzrə maliyyə hesabatlarına dair müstəqil auditorun müsbət rəyi Fondun maliyyə sağlamlığının təkamülünü, eləcə də şəffaflıq və hesabatlılığa olan sadiqliyini əks etdirir.

Eyni zamanda, şəffaflığın təmin olunması məqsədilə Qarabağ Dirçəliş Fondunun 2021, 2022 və 2023-cü illər üzrə 31 dekabr tarixinə hazırlanmış maliyyə hesabatları və müstəqil auditorun hesabatı Fondun rəsmi saytında Azərbaycan və ingilis dillərində yerləşdirilmişdir.

# 2.2. Müstəqil auditorun hesabatları

## 2023-cü il üzrə

pwc

### Müstəqil Auditorun Hesabatı

"Qarabağ Dirçəliş Fondunun" Müşahidə Şurasına və İdarə Heyətinə:

#### Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Qarabağ Dirçəliş Fondunun" ("Fond") 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Fondun maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- mühüm uçot siyasəti prinsipləri və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

#### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq Fonddan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBESŞ Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

#### Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Fondu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi
AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

pwc

#### Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Fondun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Fondun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Fondun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası

7 iyun 2024-cü il

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti • "PraysvoterhausKupers Audit Azərbaycan" • "PricewaterhouseCoopers Audit Azerbaijan" • Limited Liability Company • Azerbaijan Republic

## 2022-ci il üzrə

pwc

### Müstəqil Auditorun Hesabatı

"Qarabağ Dirçəliş Fondunun" Müşahidə Şurası və İdarə Heyətinə:

#### Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Qarabağ Dirçəliş Fondunun" ("Fond") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Fondun maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasəti və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

#### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq Fonddan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBEŞS Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

#### Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Fondu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi, AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

## 2021-ci il üzrə

pwc

### Müstəqil Auditorun Hesabatı

"Qarabağ Dirçəliş Fondunun" Müşahidə Şurasına:

#### Rəy

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "Qarabağ Dirçəliş Fondunun" ("Fond") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Fondun maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasəti və digər izahedici məlumatlar daxil olmaqla, maliyyə hesabatları üzrə qeydlər.

#### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq Fonddan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBEŞS Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

#### Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Fondu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi, AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

# 2.3. Maliyyə hesabatları

Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla və FVTPL (ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərər hesabatına aid olunan) kateqoriyasında qiymətləndirilən maliyyə alətlərini yenidən qiymətləndirməklə, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır.

## 2.3.1. Maliyyə vəziyyəti haqqında hesabat

*Azərbaycan manatı ilə*

| AKTİVLƏR | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 340,542 | 322,640 | 498,982 |
| Qeyri-maddi aktivlər | 61,104 | 60,377 | 404,730 |
| Borc qiymətli kağızlara investisiyalar | 289,052,501 | 652,103,825 | 672,871,383 |
| **Cəmi uzunmüddətli aktivlər** | **289,454,147** | **652,486,842** | **673,775,095** |
| **Qısamüddətli aktivlər** | | | |
| İanə edilmiş aktivlər | - | 3,990,661 | 3,990,661 |
| Mal-material ehtiyatları | 11,672 | 18,082 | 45,991 |
| Avans ödənişləri | 64,536 | 3,003 | 142,052 |
| Borc qiymətli kağızlara investisiyalar | 27,754,823 | 10,536,354 | 317,953,317 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 573,162,502 | 571,086,799 | 481,154,947 |
| Digər vergilər üzrə avans ödənişləri | 781 | 2,225 | 3,181 |
| **Cəmi qısamüddətli aktivlər** | **600,994,314** | **585,637,124** | **803,290,149** |
| **CƏMİ AKTİVLƏR** | **890,448,461 AZN** | **1,238,123,966 AZN** | **1,477,065,244** |

*Azərbaycan manatı ilə*

| KAPİTAL | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|---|
| Nizamnamə fondu | 1,000,000 | 1,000,000 | 1,000,000 |
| Bölüşdürülməmiş mənfəət | 888,343,129 | 1,231,159,433 | 1,471,712,539 |
| **CƏMİ KAPİTAL** | **889,343,129 AZN** | **1,232,159,433 AZN** | **1,472,712,539** |

*Azərbaycan manatı ilə*

| ÖHDƏLİKLƏR | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|---|
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 112 | 164 | 51,505 |
| Cari mənfəət vergisi öhdəliyi | 1,105,220 | 5,964,369 | 4,301,200 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1,105,332** | **5,964,533** | **4,352,705** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1,105,332** | **5,964,533** | **4,352,705** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **890,448,461** | **1,238,123,966** | **1,477,065,244** |

## 2.3.2.Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat

*Azərbaycan manatı ilə*

| | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|---|
| İanələrdən gəlirlər | 892,206,306 | 314,519,877 | 206,485,811 |
| Maliyyə gəlirləri | 9,198,829 | 34,454,187 | 47,195,993 |
| **Ümumi mənfəət** | **901,405,135** | **348,974,064** | **253,681,804** |
| Ümumi, inzibati və sair əməliyyat xərcləri | (533,265) | (2,737,010) | (3,628,333) |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə gəliri/(zərəri) | (10,351,326) | 3,633,509 | (396,620) |
| **Əməliyyat mənfəəti** | **890,520,544** | **349,870,563** | **249,656,851** |
| Maliyyə xərcləri | (448,700) | (258,346) | 293,400 |
| **Vergidən əvvəlki mənfəət** | **890,071,844** | **349,612,217** | **249,950,251** |
| Mənfəət vergisi xərci | (1,728,715) | (6,795,913) | (9,397,145) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | **888,343,129** | **342,816,304** | **240,553,106** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **888,343,129** | **342,816,304** | **240,553,106** |

## 2.3.3. Kapitalda dəyişikliklər haqqında hesabat

*Azərbaycan manatı ilə*

| | NİZAMNAMƏ FONDU | BÖLÜŞDÜRÜLMƏMİŞ MƏNFƏƏT | CƏMİ KAPİTAL |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | - | - | - |
| Kapital qoyuluşu | 1,000,000 | - | 1,000,000 |
| İl üzrə mənfəət | - | 888,343,129 | 888,343,129 |
| 2021-ci il üzrə cəmi məcmu gəlir | | 888,343,129 | 888,343,129 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **1,000,000** | **888,343,129** | **889,343,129** |
| İl üzrə mənfəət | - | 342,816,304 | 342,816,304 |
| 2022-ci il üzrə cəmi məcmu gəlir | - | 342,816,304 | 342,816,304 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **1,000,000** | **1,231,159,433** | **1,232,159,433** |
| İl üzrə mənfəət | - | 240,553,106 | 240,553,106 |
| 2023-cü il üzrə cəmi məcmu gəlir | - | 240,553,106 | 240,553,106 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **1,000,000** | **1,471,712,539** | **1,472,712,539** |

## 2.3.4. Pul vəsaitinin hərəkəti haqqında hesabat

*Azərbaycan manatı ilə*

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | 890,071,844 | 349,612,217 | 249,950,251 |
| Düzəlişlər: | | | |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlərin amortizasiyası | 11,901 | 42,848 | 42,072 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə (gəliri)/zərəri | 10,351,326 | (3,633,509) | 396,620 |
| Əsas vəsaitlər şəklində ianələr | (149,000) | - | - |
| Maliyyə gəlirləri | (9,198,829) | (34,454,187) | (47,195,993) |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə (gəlir)/zərər | 448,700 | 258,346 | (293,400) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **891,535,942** | **311,825,715** | **202,899,550** |
| İanə edilmiş aktivlərdə və mal-material ehtiyatlarında artım | (11,672) | (3,997,072) | (27,909) |
| Avans ödənişlərində azalma/(artım) | (64,536) | 61,533 | (139,049) |
| Ticarət və digər kreditor borclarında (azalma)/artım | 112 | (88) | 1,914 |
| Vergi öhdəliklərində azalma | (782) | (1,304) | 48,470 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **(76,878)** | **(3,936,931)** | **(116,574)** |
| Ödənilmiş mənfəət vergisi | (623,495) | (1,936,764) | (11,060,313) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **890,835,569** | **305,952,020** | **191,722,663** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | (201,839) | (18,239) | (213,335) |
| Qeyri-maddi aktivlərin alınması | (62,707) | (5,981) | (349,432) |
| Borc qiymətli kağızlara investisiyalar | (314,676,929) | (343,501,672) | (324,367,131) |
| Alınmış faizlər | 6,234,950 | 30,702,796 | 42,262,421 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(308,706,525)** | **(312,823,096)** | **(282,667,477)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Kapital qoyuluşu | 1,000,000 | - | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **1,000,000** | **-** | **-** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (448,700) | (258,346) | 293,400 |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis dəyərsizləşmə (gəliri)/zərəri | (9,517,842) | 5,053,719 | 719,562 |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **-** | **573,162,502** | **571,086,799** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **573,162,502** | **571,086,799** | **481,154,947** |

# 2.4. İnvestisiya fəaliyyəti

## 2.4.1. Fondun investisiya siyasəti

Fondun qarşısında qoyulmuş məqsədlərə çatması və dayanıqlı inkişafının təmin edilməsi üçün Fondun ianələr və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşan vəsaitlərin qiymətli kağızlara yerləşdirilməsi prinsiplərini müəyyən etmək məqsədilə Müşahidə Şurasının 17 mart 2023-cü il tarixli qərarı ilə "Fondun vəsaitlərinin yerləşdirilməsi haqqında Qaydalar" təsdiq edilmişdir.

2021, 2022 və 2023-cü illər ərzində Fond yerli valyutada (Azərbaycan manatı) saxlanılan vəsaitlərin yerləşdirilməsini aşağıdakı cədvələ uyğun olaraq həyata keçirmişdir.

| İnvestisiya müddəti | Təsviri və yerləşdirmə növü |
|---|---|
| **Uzunmüddətli** | 3 ildən 5 (daxil olmaqla) ilədək ödəmə müddəti olan Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları<br><br>İlkin hərrac, xüsusi emissiya və təkrar bazarda yerləşdirmə |
| **Ortamüddətli** | 1 ildən 3 (daxil olmaqla) ilədək ödəmə müddəti olan Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları<br><br>İlkin hərrac, xüsusi emissiya və təkrar bazarda yerləşdirmə |
| **Qısamüddətli** | 1 (daxil olmaqla) ilədək ödəmə müddəti olan Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları<br><br>İlkin hərrac, xüsusi emissiya və təkrar bazarda yerləşdirmə<br><br>Azərbaycan Respublikasının dövlət banklarında yerləşdirilən, müddəti 1 ilə qədər olan depozitlər |

Fondun xarici valyutada saxlanılan vəsaitlərinin yerləşdirilməsi aşağıdakı cədvələ uyğun həyata keçirilir.

| İnvestisiya müddəti | Təsviri və yerləşdirmə növü |
|---|---|
| **7 ilədək (daxil olmaqla)** | Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan və ya Azərbaycan Respublikasının müvafiq dövlət orqanı tərəfindən ödənişlərinə zəmanət verilən digər qiymətli kağızlar<br><br>İlkin hərrac, xüsusi emissiya və təkrar bazarda yerləşdirmə |

* *Hesabat müddəti ərzində xarici valyutada saxlanılan vəsaitlərin yerləşdirilməsi həyata keçirilməyib.*

## 2.4.2. Fondun investisiyalar və aktivlərin bölgüsü ilə bağlı qərarvermə meyarları

| | |
|---|---|
| **Aktivlərin sinifləri** | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin buraxdığı risksiz istiqrazlar və ya aşağı riskli bank depozitləri |
| **Əsas göstəricilər** | Faiz dərəcəsi, ödəniş müddəti, kupon ödənişləri qrafiki və s. bu kimi indikatorları qiymətləndirilir. |
| **Likvidlik və proqnozlaşdırılmış nağd pulun hərəkəti** | Gözlənilməyən/təcili layihələri maliyyələşdirmək üçün minimal əməliyyat xərcləri ilə asanlıqla satıla bilən aktivlərə üstünlük verilir. Eyni zamanda, Fond qısamüddətli gəlirlər üçün ticarət etmir, qiymətli kağızları ödəmə müddətinə qədər saxlayır və sabit/proqnozlaşdırıla bilən gəlirliliyi təmin edir. |
| **Risk profili** | Qərarların qəbul edilməsi zamanı bazar gəlir dərəcəsindən daha çox risk profillərinə önəm verilir (gəlirlərin sabitliyi, sistematikliyi və etibarlılığını təmin edən amillər) |
| **Pul vəsaitlərinin mənəvi dəyəri** | Əsas gəlir mənbəyi könüllü ianələr olduğundan maraqlı tərəflər qarşısında hesabatlılıq Fond üçün böyük əhəmiyyət kəsb edir. Həmçinin, Qarabağın şəhidlərin canı bahasına azad edildiyini nəzərə alsaq, Fondun investisiyalarının iflasa uğraması onun özünün və dövlətin reputasiyasına çox zərər vura bilər və bunun nəticələri maliyyə itkisindən daha ağır ola bilər. Bu amil investisiyalarla bağlı istənilən məsələnin həssaslığını artırır. |
| **Portfel hədəfi** | İşğaldan azad edilmiş ərazilərin bərpasına dair yol xəritəsini müəyyən edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın 3-5 illik dövrü əhatə etdiyini nəzərə alaraq, Fondun investisiya portfelində hökumətin strategiyasına uyğun olaraq 5 ilə qədər olan qiymətli kağızlar yer alıb. Beləliklə, bençmark göstəricisi kimi 3 illik dövlət istiqrazlarının orta gəlirliliyi müəyyən edilib. |



## 2.4.3. Qiymətli kağızlarla bağlı investisiya qərarlarının verilməsi prosesi

### Qərarvermə prosesinin mərhələləri

| | |
|---|---|
| **1.İlkin Məlumatın Təqdimatı** | • İnvestisiya şirkətləri (brokerlər) Maliyyə Nazirliyi tərəfindən keçiriləcək növbəti hərrac haqqında məlumatı təqdim edir.<br>• İnvestisiya şirkətləri istiqrazların gözlənilən gəlirliliyi ilə bağlı gözləntilərini şərhlərlə birlikdə təqdim edir. |
| **2.Fondun İnvestisiya Mütəxəssisləri Tərəfindən Təhlil** | • Maliyyə bölməsinin investisiya mütəxəssisləri investisiya şirkətləri tərəfindən təqdim edilən məlumatları təhlil edir.<br>• Bu təhlil əsasında ilkin təklif hazırlanır və maliyyə bölməsinin müdirinə təqdim edilir. |
| **3.Maliyyə bölməsinin Müdirinin Rəyi** | • Maliyyə bölməsinin müdiri təqdim edilən təhlili və müvafiq hesablamaları nəzərdən keçirir.<br>• Bu icmal əsasında müvafiq təklif hazırlanır və İdarə Heyətinin sədrinə təqdim edilir. |
| **4.İdarə Heyətinin Sədrinin Rəyi** | • İdarə Heyətinin sədri təklifi və bununla bağlı təqdim edilən təhlili nəzərdən keçirir. Ehtiyac olduqda, sədr brokerlər və risklərin idarə edilməsi şöbəsi ilə məsləhətləşir.<br>• Daha sonra sədr maliyyə şöbəsinin şərh verməsi üçün yekun təklifi təqdim edir. |
| **5.Yekun Təklifin Təqdim edilməsi** | • Yekun razılaşdırılmış təklif investisiya şirkətlərinə hərracda yerləşdirilməsi üçün təqdim edilir. |

### Nəzərə Alınan Amillər

**Kupon və gəlir faizlərinin müqayisəsi**

Kupon faizləri və gözlənilən gəlirliliyin eyni istiqrazlar üzrə son üç hərracın nəticələri ilə müqayisəsi.

**Gəlirlilik əyrisi və uçot dərəcəsinin təhlili**

Azərbaycan Mərkəzi Bankı tərəfindən müəyyən edilən dövlət istiqrazlarının ilkin və təkrar bazar əməliyyatları üzrə orta gəlirlilik əyrisinin və uçot dərəcəsinin təhlili.

**Bazar potensialının təhlili**

Alıcılar və satıcılar arasında güc balansını anlamaq və yerləşdirmə strategiyasını müəyyən etmək üçün əvvəlki hərracların təhlili.

**Portfel təsirinin hesablanması**

İstiqrazların alışının QDF-in mövcud portfelinə təsirinin hesablanması.

**Mövcud İnvestisiya Siyasətinə uyğunluğun yoxlanılması**

İnvestisiya təklifinin Fondun İnvestisiya Siyasətinə, o cümlədən onun strukturuna və meyarlarına uyğunluğunun yoxlanılması.

**İnflyasiya dərəcələrinin icmalı**

Inflyasiyanın dinamikasının və qarşıdan gələn dövr üçün proqnozlaşdırılan inflyasiya göstəricilərinin təhlili

## 2.4.4. Məsuliyyətli qərarların qəbulu

Aşağıdakı qrafiklər Fondun investisiya strategiyasının bazar dempinqinə qarşı olduğunu və bazar gəlirliyinin süni azalmasına imkan vermədiyini göstərir (bu yanaşma həm də bazarın orta gəlirliliyi səviyyəsində minimal mənfəətə zəmanət verir). Bunun nəticəsidir ki, Fondun investisiya portfelinin 79%-ni Azərbaycan Respublikası Maliyyə Nazirliyinin ilkin bazarda keçirdiyi hərraclarda alınmış istiqrazlar təşkil edir.

Qrafiklərdən göründüyü kimi, Fondun təklifləri bazar trendinə uyğundur və bu təkliflər bazarda müəyyən edilmiş orta çəkili gəlirlilik səviyyəsinə yaxındır və ya ondan yüksəkdir. (gəlirlilik səviyyəsi çox aşağı olduqda, Fond hərraclarda iştirakdan yayınmağa üstünlük verir).

**3 illik dövlət qiymətli kağızlar üzrə keçirilən hərraclarda**




**2 illik dövlət qiymətli kağızlar üzrə keçirilən hərraclarda**



## 2.4.5. Sabit gəlirli maliyyə alətlərinə investisiyalar

Qarabağ Dirçəliş Fondunun 2021, 2022 və 2023-cü illər ərzində sabit gəlirli maliyyə alətləri üzrə investisiya portfelində yalnız Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları yer almışdır.

Fondun investisiya portfelinin strukturu qısamüddətli (1 ilə qədər), orta müddətli (1-3 il) və uzunmüddətli (3-5 il) qiymətli kağızlardan ibarətdir və ortamüddətli qiymətli kağızlara investisiyalara üstünlük verilir. 31.12.2023-cü il tarixinə ortamüddətli qiymətli kağızların portfeldəki payı 49.97%-ə çatıb.

Fondun 2021-2023-cü illər ərzində hər il üzrə sabit gəlirli maliyyə alətlərinə yerləşdirilmiş vəsaitinin həcmi və yerləşdirmənin orta gəlirliliyi aşağıdakı kimidir:

*Azərbaycan manatı ilə*

| İstiqrazın növü | 2021-ci il üzrə | | 2022-ci il üzrə | | 2023-cü il üzrə | | Alınan QK həcmi** |
|---|---|---|---|---|---|---|---|
| | İnvestisiya həcmi (AZN) | Orta illik gəlirlilik %* | İnvestisiya həcmi (AZN) | Orta illik gəlirlilik %* | İnvestisiya həcmi (AZN) | Orta illik gəlirlilik %* | |
| Qısamüddətli (1 ilə qədər) | 24,863,939 | 3.96% | 483,275 | 3.03% | 204,326,614 | 5.96% | 229,673,828 |
| Ortamüddətli (2-3 il) | 124,930,124 | 5.96% | 201,746,524 | 4.34% | 176,764,316 | 8.35% | 503,440,964 |
| Uzunmüdətli (5 il və daha çox) | 164,882,866 | 7.48% | 174,093,873 | 5.97% | - | - | 338,976,739 |
| **Cəmi** | **314,676,929** | **6.59%** | **376,323,672** | **5.10%** | **381,090,930** | **7.06%** | **1,072,091,531** |

*Orta illik gəlirlilik cari ildə investisiya həcminin yerləşdirildiyi orta gəlirlilik dərəcəsini əks etdirir.

**Qeyd: Alınan QK həcmindən 89,545,799 manat olan hissəsi müddəti bitdiyinə görə geri ödənilmişdir.

Müvafiq illər ərzində müddəti bitdiyinə görə geri ödənilən investisiya həcmlərini nəzərə almaqla, Fondun 2021, 2022 və 2023-cü ilərin sonuna ümumi investisiya portfeli aşağıdakı kimidir:

*Azərbaycan manatı ilə*

| | 2021-Cİ İLİN SONUNA | 2022-Cİ İLİN SONUNA | 2023-CÜ İLİN SONUNA | | |
|---|---|---|---|---|---|
| İstiqrazın növü | Portfelin həcmi | Portfelin həcmi | Portfelin həcmi | Gəlirlilik | Portfel üzrə çəki |
| Qısamüddətli (1 ilə qədər) | 25,351,940 | 368,259 | 154,446,035 | 6.37 % | 15.59% |
| Ortamüddətli (1-3 il) | 125,967,002 | 321,012,010 | 495,124,711 | 6.15 % | 49.97% |
| Uzunmüddətli (3-5 il) | 165,488,382 | 341,259,909 | 341,253,954 | 6.69 % | 34.44% |
| **Cəmi** | **316,807,324** | **662,640,179** | **990,824,700** | **6.40%** | **100%** |

Fondun 2023-cü il üzrə investisiya portfelinin bölgüsü aşağıdakı kimidir:



## 2.4.6. Hesablanmış faiz gəlirləri

Fondun faktiki yerləşdirilmiş vəsaitlər üzrə
faiz gəlirlərindən daxilolmaları aşağıdakı kimidir:

*Azərbaycan manatı ilə*

| Fondun dövlət istiqrazlarına yerləşdirdiyi vəsaitlərin cəmi və həmin yerləşdirmələrdən daxilolmalar | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yerləşdirilmiş vəsaitlərin toplam həcmi | | Faktiki yerləşdirilmiş vəsaitlər üzrə gözlənilən gəlirlər | | | | | | | | |
| | | **2021*** | **2022*** | **2023*** | **2024** | **2025** | **2026** | **2027** | **Cəmi** |
| 2021-ci ildə | **314,676,929** | 6,234,950 | 21,693,768 | 20,715,108 | 18,402,689 | 12,474,479 | 8,284,479 | _ | 87,805,453 |
| 2022-ci ildə | **376,323,672** | _ | 9,986,522 | 18,410,805 | 17,507,816 | 13,196,804 | 9,652,154 | 4,798,996 | 73,553,097 |
| 2023-cü ildə | **381,090,932** | - | - | 3,971,293 | 21,604,694 | 10,925,894 | 4,153,055 | - | 40,654,935 |
| Toplam | **1,072,091,532** | **6,234,950** | **31,680,290** | **43,097,206** | **57,515,199** | **36,597,177** | **22,089,688** | **4,798,996** | **202,013,482** |

*Qeyd: 2021, 2022 və 2023-cü illər üzrə qeyd olunan faiz gəlirləri Fonda ödənilməsi tam təmin edilmişdir

Son üç il ərzində investisiya portfelinin genişlənməsi ilə yanaşı investisiya edilmiş vəsaitlərdən əldə edilən gəlirlərin həcmi də əhəmiyyətli dərəcədə artmışdır:

• 2021-ci ildə investisiya olunmuş vəsaitlərdən əldə edilmiş gəlirlər 6.23 milyon manat təşkil etmişdir.

• 2022-ci ildə bu rəqəm beş dəfə artaraq 31.68 milyon manat təşkil etmişdir.

• Sonra isə, 2023-cü ildə, bu göstərici daha 11.42 milyon manat və ya 36% artaraq 43.1 milyon manata çatmışdır.

• İnvestisiya portfelinin mövcud strukturunu nəzərə alaraq, investisiya olunmuş vəsaitlərdən 2024-cü ildə artıq 57.5 milyon manatdan çox gəlir təmin edilib.

• Bütün investisiya olunmuş vəsaitləri və portfelin göstəricilərini nəzərə alaraq, investisiya olunmuş vəsaitlərdən əldə edilmiş cəmi gəlirlərin 2027-ci ildə 202 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır.

Son üç il ərzində investisiya edilmiş vəsaitlərdən əldə edilən gəlirlərin artması, maliyyə gəlirlərinin yenidən investisiya edilməsi, vaxtı bitən qiymətli kağızlardan əldə edilən vəsaitlər və ianələrdən toplanmış vəsaitlər fonda investisiya gəlirlərini 2024-2027-ci illərdə daha da artırmağa imkan verəcəkdir. Bu strategiya investisiya gəlirlərində müşahidə edilən artım tempini qorumağa yönəlib.

### Portfelin göstəriciləri



## 2.4.7. Fondun investisiya fəaliyyətinin ölkə iqtisadiyyatına müsbət təsiri

**1. Yerli kapital bazarının inkişafına dəstək**

Fondun vəsaitlərinin 79%-nin ilkin daxili kapital bazarında keçirilən hərraclarda buraxılan qiymətli kağızlara yerləşdirməsi daxili kapital bazarına həcmlərin, şəffaflığın və kapitala çıxışın artırılması vasitəsilə müsbət təsir edir. Gələcəkdə daxili kapital bazarında Fondun investisiya fəaliyyətinin şaxələndirilməsi bazarın inkişafını dəstəkləyəcəkdir.

**2. İnvestorların inamının artırılması və bazarın sabitliyinin möhkəmləndirilməsi**

Fond bazarda əsas investorlardan biri olmaqla (marketmeyker), xüsusilə də dövləti təmsil etdiyindən digər investorlar üçün bazarın cəlbediciliyini və etibarını artırır. Bununla da Fond bazarda sabitliyin qorunmasına töhfə verir.

**3. Kapital bazarında iştirak etməklə azad edilmiş ərazilərdə həyata keçirilən layihələrə dolayı maliyyə dəstəyinin göstərilməsi**

Büdcə kəsrini və büdcə vəsaitlərinin bir hissəsinin azad edilmiş ərazilərə yönəldildiyini nəzərə aldıqda dövlət qiymətli kağızlarına investisiya etməklə Fond hökumətin büdcə kəsrini maliyyələşdirmək səylərinə dəstək vermiş olur. Beləliklə, Fond işğaldan azad edilmiş ərazilərdə layihələri birbaşa maliyyələşdirməklə yanaşı, fiskal maliyyələşdirməyə töhfə verməklə bu təşəbbüsləri dolayı yolla da dəstəkləyir.

**4. Vergi ödənişləri vasitəsilə dövlətin fiskal siyasətinin dəstəklənməsi**

Fondun yerli kapital bazarlarında investisiyaları Azərbaycan Respublikasının dövlət büdcəsinə vergi ödənişlərinin də artması ilə nəticələnir. 2021-2023-cü illər ərzində Fondun əldə etdiyi gəlirlər üzrə 17.92 milyon mənfəət vergisi formalaşmışdır və investisiya portfelinin köklü restrukturizasiyaya məruz qalmadığı təqdirdə bu məbləğin artacağı gözlənilir.

**5. Hökumətin xarici borcu azaltmaq səylərinin dəstəklənməsi**

Azərbaycan hökumətinin 2024-cü il üçün xarici borc ilə bağlı müəyyən etdiyi hədəf göstəricisi ÜDM-in 7%-dir (2023-cü ildə 10% təşkil edib).

Həmçinin, "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" sənədinə əsasən, 2022-2025-ci illər üçün dövlət borcunun ÜDM-ə olan nisbətinin yuxarı həddi 30% təşkil edəcəkdir (əvvəl 20% səviyyəsində müəyyən edilmişdi) və 2025-ci ilin sonuna qədər xarici dövlət borcu mütləq ifadədə 10 milyard ABŞ dollarını keçməməlidir.

Bununla da Fond, daxili bazara və fiskal maliyyələşdirməyə sərmayə qoymaqla, hökumətin Prezident tərəfindən müəyyən edilən daxili və xarici borc səviyyəsinin müəyyən edilən həddinin təmin edilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsləri dəstəkləmiş olur.





## DÜNYA ŞÖHRƏTLİ BƏSTƏKAR ÜZEYİR HACIBƏYLİNİN BƏRPA OLUNARAQ ŞUŞA ŞƏHƏRİNDƏ YENİDƏN UCALDILAN HEYKƏLİ

Layihə Heydər Əliyev Fondunun təşəbbüsü və sifarişi əsasında Qarabağ Dirçəliş Fondunun maliyyə dəstəyi ilə həyata keçirilib

Qarabağ
Dirçəliş
Fondu

03

# FONDUN FƏALİYYƏTİNİN STRATEJİ İSTİQAMƏTLƏRİ (2022-2025)

Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının 20 dekabr 2021-ci il tarixli qərarı ilə Fondun fəaliyyətinin strateji istiqamətləri (2022-2025) aşağıdakı kimi təsdiq olunub.

## Bərpa və yenidənqurma

İşğaldan azad edilmiş ərazilərdə aparılan çoxşaxəli tikinti, bərpa və yenidənqurma işlərinə, o cümlədən tarixi və dini abidələrin bərpasına maliyyə dəstəyinin göstərilməsi.

## Dayanıqlı məskunlaşma

İşğaldan azad edilmiş ərazilərdə məcburi köçkünlərin və yeni sakinlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi, həmin ərazilərin sakinlər üçün sağlam, müasir və abad yaşayış məkanına çevrilməsi istiqamətində aparılan layihələrin dəstəklənməsi.

## Ekoloji tarazlığın bərpası

İşğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpasına (o cümlədən meşə örtüyünün və biomüxtəlifliyin bərpası, resurslardan səmərəli istifadə və s.) və yaşıl enerji layihələrinə maliyyə dəstəyinin göstərilməsi.

## Təşviqat işləri və kommunikasiyalar

İşğal nəticəsində Qarabağa dəyən zərər, eyni zamanda Fondun maliyyə dəstəyi ilə işğaldan azad olunan ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, ianəçilik mədəniyyətinin təbliği, daha çox insanın bərpa prosesində iştirakının təmin edilməsi, ümumilikdə ölkə daxilində və ölkə xaricində Fondun fəaliyyəti ilə bağlı məlumatların geniş ictimaiyyətə çatdırılması və Fondun müsbət imicinin formalaşdırılması.

## İnsan kapitalının (cəmiyyətin) inkişafı

Yerli və beynəlxalq tədqiqatçılar tərəfindən Qarabağın iqtisadi imkanları və yeni iqtisadiyyat quruculuğu ilə bağlı elmi tədqiqatların aparılması üçün qrantların ayrılması, kitab, jurnal və digər vəsaitlərin nəşr edilməsi, sakinlərin müxtəlif peşələr və sahələr üzrə zəruri bacarıqlarının inkişaf etdirilməsi.

## Qarabağın investisiya və işgüzar potensialının təşviqi

İşğaldan azad olunmuş ərazilərin dayanıqlı inkişafına töhfə vermək, məşğulluğu və əhalinin rahat şəraitdə yaşamasını təmin etmək məqsədilə regionun investisiya qoyuluşunun potensialının, perspektivli istiqamətlərinin təşviqi, yaşıl enerji, ekoloji cəhətdən təhlükəsiz və səmərəli sosial infrastruktur, o cümlədən "ağıllı kəndlər"in inkişafına dair layihələrin hazırlanması üçün dəstəyin göstərilməsi, potensial investorlarla iş birliyinin qurulması.

## Mütərəqqi idarəetmə

Fondun fəaliyyətində qabaqcıl korporativ idarəetmə standartlarının tətbiq edilməsi (o cümlədən bütün steykholderlərin maraqlarının nəzərə alınmasını və əməliyyat risklərinin minimuma endirilməsini təmin edən biznes proseslərinin yaradılması və rəqəmsal təməl üzərində qurulması).

## Məsuliyyətli investisiyalar

Uzunmüddətli və davamlı əlavə dəyər yaratmaq və cəmiyyətimizə müsbət təsir göstərmək üçün nümunəvi və məsuliyyətli investor olaraq investisiya imkanlarından maksimum faydalanmaq.

Fondun fəaliyyətinin strateji istiqamətləri (2022-2025) ilə ətraflı Fondun saytında tanış ola bilərsiniz.

qdf.gov.az/fealiyyet/prioritetler/

Qarabağ
Dirçəliş
Fondu

04

# MALİYYƏ DƏSTƏYİ

## Layihələrə ayrılan maliyyə dəstəyi barədə infoqrafika




## Fondun vasitəçiliyi ilə ianə edilən texnikalar və kottecin həcmi barədə infoqrafika




Qarabağ Dirçəliş Fondu işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və infrastruktur quruculuğu və ekoloji tarazlığın bərpası istiqamətlərində aparılan dövlət siyasətinə uyğun olaraq, həmçinin həmin ərazilərdə yerləşən mədəni və maddi irs obyektlərinin rəmzi dəyərinin Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, öz resurs və imkanlarını ilk olaraq məhz onların bərpasına yönəltməklə öz fəaliyyətini təşkil edir.

2021 - 2023-cü illər ərzində Fond aşağıda qeyd olunan layihələrə maliyyə dəstəyi ayırmışdır:

| FONDUN MALİYYƏ DƏSTƏYİ İLƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR HAQQINDA | | |
|---|---|---|
| Adı | İştirakçılar | |
| | Sifarişçi | İcraçı /Resipiyent |
| **Şuşa şəhərində Üzeyir Hacıbəylinin heykəlinin yenidən yaradılması**<br><br>Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim və ictimai xadim, müasir Azərbaycanın peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin bürünc materialdan heykəlinin yenidən yaradılması və yerində quraşdırılması işlərinin həyata keçirilməsi. | Heydər Əliyev Fondu | "Regional İnkişaf" İctimai Birliyi |
| **Zəngilan rayonunda meşə örtüyünün bərpası**<br><br>İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində ekoloji terrorun nəticələrinin aradan qaldırılması məqsədi ilə Zəngilan şəhərinin girişində, 30 hektar ərazidə 30 min müxtəlif növlü ağacın əkilməsi və onların suya olan tələbatını təmin etmək üçün damcı suvarma və filtrasiya sistemlərinin quraşdırılması. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | "EkoSfera" Sosial-Ekoloji Mərkəzi İctimai Birliyi |
| **Şuşa şəhərində yerləşən Xalça sərgisi binasının bərpası və yenidən qurulması işləri**<br><br>XIX əsrin II yarısında Şuşa şəhərində yerləşən və yerli ziyalılardan sayılan Seyid Hadının sifarişi ilə inşa edilən binanın bərpası və yenidən qurulması layihəsi. Bina layihəyə əsasən, bərpa olunduqdan sonra Xalça Sərgisi Binası kimi fəaliyyət göstərir. | Heydər Əliyev Fondu | "Regional İnkişaf" İctimai Birliyi |
| **Şuşa şəhərində yerləşən Yaradıcılıq Mərkəzinin binasının (Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası) bərpası**<br><br>Şuşa şəhərində yerləşən və XIX əsrin 80-ci illərində məşhur şuşalı tacir Ağa Qəhrəman Mirsiyab oğlunun vəsaiti hesabına inşa edilmiş karvansara binasının bərpası və yenidən qurulması layihəsi. Bina bərpa olunduqdan sonra Yaradıcılıq Mərkəzi kimi fəaliyyət göstərir. | Heydər Əliyev Fondu | "Regional İnkişaf" İctimai Birliyi |
| **Füzuli Mərkəzi Parkı üzrə layihə-smeta sənədlərinin hazırlanması**<br><br>İşğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpası işləri çərçivəsində Füzuli şəhərində 22.47 hektar ərazidə Mərkəzi Parkın salınması nəzərdə tutulub. Park ekoloji turizmin stimullaşdırılması ilə yanaşı bioloji müxtəlifliyin qorunub saxlanılmasında da mühüm rol oynayacaq. Parkda istirahət zonaları, multifunksional açıq yaşıllıq sahələri, iaşə zonaları, piknik və idman məqsədilə istifadə ediləcək zonalar, qaçış üçün cığırlar, velosiped yolları, amfiteatr və digər obyektlərin yaradılması nəzərdə tutulub. | Qarabağ Dirçəliş Fondu | Podratçı: "By Medgalchi" MMC |
| **"Şahbulaq qalası" kompleksinin ətrafında turizm infrastrukturunun layihələndirilməsi**<br><br>Ağdam şəhər mərkəzindən 5 km məsafədə yerləşən və dövlət mühafizəsində olan yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri sırasında yer alan "Şahbulaq qalası" kompleksinin bərpası, həmçinin kompleks ətrafında müasir şəhərsalma qaydaları əsasında turizm infrastrukturunun yaradılması işlərinin layihələndirilməsi nəzərdə tutulur. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi" PHŞ |
| **Füzuli Mərkəzi Parkı layihəsi çərçivəsində sahənin tikili qalıqlarından, təbii, məişət, inşaat və digər tullantılardan təmizlənməsi, onların daşınması və ərazinin hasara alınması**<br><br>"Dövlət satınalmaları haqqında" qanuna uyğun olaraq işğaldan azad edilən Füzuli şəhərinin "Mərkəzi Parkı"nın ərazisinin tikili qalıqlarından və digər tullantılardan təmizlənməsi və ərazinin müvəqqəti hasara alınması üzrə açıq tender keçirilmiş və işlərə start verilmişdir. | Qarabağ Dirçəliş Fondu | "Ramco" QSC |

| MƏLUMATLAR | | | | | | |
|---|---|---|---|---|---|---|
| **İstiqamət** | **Ümumi büdcə (AZN)** | **Faktiki ödənilmiş vəsait (AZN)** | **Ödənişin icra statusu** | **Layihənin icra statusu** | **Qalereya** | **Əlavə məlumat** |
| Bərpa və yenidənqurma | 343,999.99 | 343,999.99 | 100 % | Yekunlaşıb |  | |
| Ekoloji tarazlığın bərpası | 158,719.51 | 154,114.25 | 97.10 % | Yekunlaşıb |  | |
| Bərpa və yenidənqurma | 775,481.56 | 775,481.56 | 100 % | Yekunlaşıb |  | |
| Bərpa və yenidənqurma | 1,111,651.86 | 1,111,651.86 | 100 % | Yekunlaşıb |  | |
| Ekoloji tarazlığın bərpası | 438,960.00 | 257,476.00 | 58.66 % | Davam edir |  | |
| Bərpa və yenidənqurma | 287,550.00 | 119,900.00 | 41.70 % | Davam edir |  | |
| Ekoloji tarazlığın bərpası | 584,500.50 | 0 | 0 % | Davam edir |  | |

## FONDUN VASİTƏÇİLİYİ İLƏ İANƏ EDİLƏN TEXNİKALAR VƏ KOTTEC HAQQINDA

| Adı | İanə edən |
|---|---|
| **Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə texnikanın ianə edilməsi**<br><br>220,900 AZN məbləğində aktivlər birbaşa "Improtex" şirkəti tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br>İanə edilən texnika:<br>- "JAC N120" şassisi üzərində quraşdırılmış "Platepower 10" üst qurğulu tullantı daşıma avtotexnikası;<br>- "Hattat" markalı traktor;<br>- 10 tonluq mobil yanacaqdoldurma çəni;<br>- 5 tonluq mobil yanacaqdoldurma çəni. | Improtex Şirkətlər Qrupu |
| **AR Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəliyinə texnikanın ianə edilməsi**<br><br>47,500 AZN məbləğində aktiv birbaşa anonim donor tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br>İanə edilən texnika:<br>- "Mitsubishi L-200" markalı pikap avtomobili | Yerli sahibkarlar |
| **Zəngilan rayonuna texnikanın ianə edilməsi**<br><br>134 000 AZN məbləğində aktiv Veysəloğlu Şirkətlər Qrupu tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br>İanə edilən texnika:<br>- "İsuzu" FSR 90 L şassi üzərində 10 tonluq su çəni (ön və arxa şırnaq, yüksək təzyiqli su kəməri, dolma və təzyiqli sulama nasosu ilə birgə). | Veysəloğlu Şirkətlər Qrupu |
| **ANAMA-ya "Revival P" minatəmizləmə maşınının ianə edilməsi**<br><br>26 avqust 2023-cü il tarixində Qarabağ Dirçəliş Fonduna sahibkarlar tərəfindən "İmprotex İndustries" (Azərbaycan) şirkətinin istehsalı olan "Revival P" minatəmizləmə maşını ianə olunub. Sentyabrın 4-də QDF tərəfindən həmin maşının Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) verilməsinə həsr olunan təqdimat mərasimi keçirilib.<br><br>İanə edilən texnika:<br>- "Revival P" piyada əleyhinə minatəmizləmə maşını (1 ədəd) | Yerli sahibkarlar |
| **AR Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəliyinə texnikanın ianə edilməsi**<br><br>122,000 AZN məbləğində aktiv birbaşa "R Group Holding" tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br>İanə edilən texnika:<br>- "Mitsubishi L-200" markalı pikap avtomobili<br>- "Toyota RAV4" markalı avtomobil | R Group Holding |
| **Şuşa şəhərinə texnikanın ianə edilməsi**<br><br>54,000 AZN məbləğində aktiv birbaşa "R Group Holding" tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br>İanə edilən texnika:<br>- "Mitsubishi L-200" markalı pikap avtomobili | R Group Holding |
| **Füzuli rayonuna kottecin ianə edilməsi**<br><br>153 400 AZN məbləğində aktiv Veysəloğlu Şirkətlər Qrupu tərəfindən alınıb və QDF-in vasitəçiliyi ilə ianə edilib.<br><br>İanə edilən yaşayış evi: Tikilmiş və tam təmir olunmuş 135 m2 kottec | Veysəloğlu Şirkətlər Qrupu |

| MƏLUMATLAR | | | | | |
|---|---|---|---|---|---|
| İanə alan /Resipiyent | İanə edilən dövr | İstiqamət | Ümumi büdcə (AZN) | Qalereya | Əlavə məlumat |
| Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi | 02.03.2022 - 19.04.2022 | Bərpa və yenidənqurma | 220,900.00 |  | |
| Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndəliyi | 13.06.2022 | Bərpa və yenidənqur-ma | 47,500.00 |  | |
| "Şərqi Zəngəzur İqtisadi Ra-yonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ | 23.05.2023 | Bərpa və yenidənqurma | 134,000.00 |  | |
| Azərbaycan Respublikasının Minatə-mizləmə Agentliyi | 04.09.2023 | Bərpa və yenidənqurma | 839,832.30 |  | |
| Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndəliyi | 30.10.2023 | Bərpa və yenidənqurma | 122,000.00 |  | |
| Şuşa Şəhəri | 30.10.2023 | Bərpa və yenidənqurma | 54,000.00 |  | |
| Füzuli şəhəri | 23.10.2023 | Bərpa və yenidənqurma | 153,400.00 |  | |

Qarabağ
Dirçəliş
Fondu

05

# İNFORMASİYA TƏMİNATI, MAARİFLƏNDİRMƏ VƏ TƏŞVİQAT İŞLƏRİ

# 5.1. Kommunikasiya

Qarabağ Dirçəliş Fondu öz Nizamnaməsinə uyğun olaraq, ölkə daxilində və xaricində çevik kommunikasiyalar qurmaqla Qarabağa dəyən zərər, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri və Cənubi Qafqazda formalaşan yeni reallıqlarla bağlı yerli və xarici ictimaiyyətin məlumatlandırılması, bərpa prosesində vətəndaşların iştirakçılığının təmin edilməsi, Qarabağa donor dəstəyi və sərmayələrin cəlb edilməsi məqsədilə təbliğat və təşviqat işləri aparmaqdadır.

**Fondun kommunikasiya strategiyasının həyata keçirilməsində məqsəd aşağıdakı məlumatları geniş ictimaiyyətə çatdırmaqdır:**

1. Bərpa prosesində milli həmrəyliyin vacibliyini və ictimaiyyətin iştirakının rolunu və əhəmiyyətini vurğulamaq,

2. İşğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində əldə edilmiş uğurları, habelə görülən işlərin keçmiş məcburi köçkünlərin həyatına müsbət təsirini nümayiş etdirmək,

3. Qarabağda innovativ və dayanıqlı şəhərsalma yanaşmalarını geniş auditoriyanın diqqətinə çatdırmaq, bu regionu islahatlar və innovasiyalar məkanı kimi təqdim etmək,

4. Erməni işğalının səbəbləri və onun nəticəsində Qarabağa vurulan zərər haqqında məlumatları geniş ictimaiyyətə çatdırmaq,

5. Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olması baxımından Qarabağın bərpasının rolunu vurğulamaq və s.

## Media və sosial şəbəkələr

Yuxarıda qeyd olunan məqsədlərdən irəli gələrək müvafiq məlumatların Fondun Facebook, Instagram, LinkedIn və Twitter sosial şəbəkələrindəki rəsmi hesabları vasitəsilə 2023-cü ilədək 9,294,767 nəfər hədəf kütləyə çatdırılması təmin edilib, Fondun sosial şəbəkə hesablarında izləyici sayı isə 13,537 nəfərə çatdırılıb.

Bundan əlavə, Qarabağa erməni işğalı nəticəsində dəyən zərər barədə məlumatların Fondun kommunikasiyasının bir hissəsi olan "Karabakh.Center" internet resursunun sosial şəbəkə hesabları vasitəsilə 3,030,915 nəfərə, "Karabakh.Center" internet resursunun istifadəçilərinin sayının isə 7,264 nəfərə çatdırılması təmin edilib.

Ümumilikdə, Fondun məlumatları 12 325 682 nəfərdən ibarət auditoriyanı əhatə edib. Eyni zamanda, QDF-in rəsmi hesablarının və "Karabakh.Center" internet resursunun sosial şəbəkə izləyicilərinin sayı isə 20 801 nəfərə çatdırılıb.

O cümlədən sosial mediada Fondun rəsmi hesabları və "Karabakh.Center" internet resursunun hesablarında paylaşılan məlumatlarla bağlı 702,517 bəyənmə, 8,568 yenidən paylaşma, 5,935 şərh qeydə alınıb.

Media üzrə göstəricilərə gəlincə, üç il ərzində Fondun fəaliyyəti ilə bağlı çap mediası üzrə 332 xəbər, onlayn media üzərindən 9 830 xəbər, TV-də 445 reportaj, radioda 19 efir yayımlanıb.

Fondun fəaliyyəti ilə bağlı müxtəlif KİV-lərdə 10,607 məlumatın və reportajın verilməsi təmin olunub. Bu məlumatların 9,978-i (94,06 %) müsbət, 616-ı (5,80 %) neytral, 23-ü isə mənfi (0,21%) olub.

## Mediada yayımlanan məlumatlara dair statistika

| MEDİA KANALLARI ÜZRƏ BÖLGÜ | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | | 2022 | | 2021 | |
| Onlayn | 2412 | 93.4 % | 3155 | 91.5 % | 4263 | 93.1 % |
| Qəzet və jurnallar | 90 | 3.5 % | 159 | 4.6 % | 83 | 1.8 % |
| TV | 80 | 3.1 % | 133 | 3.9 % | 232 | 5.1 % |
| **Cəmi** | **2582** | **100 %** | **3447** | **100 %** | **4578** | **100 %** |




| MƏLUMATLARIN TONALLIQ ÜZRƏ BÖLGÜSÜ | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | | 2022 | | 2021 | |
| Müsbət | 2360 | 91.40 % | 3325 | 96.46 % | 4293 | 93.77 % |
| Neytral | 206 | 7.98 % | 121 | 3.51 % | 279 | 6.09 % |
| Mənfi | 16 | 0.62 % | 1 | 0.03 % | 6 | 0.13 % |
| **Cəmi** | **2582** | **100 %** | **3447** | **100 %** | **4578** | **100 %** |



## Sosial şəbəkələr üzrə statistika

| QDF-İN RƏSMİ HESABLARINDA PAYLAŞIMLARIN ƏHATƏ DAİRƏSİ | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | | 2022 | | 2021 | |
| | Əhatə dairəsi | Paylaşım sayı | Əhatə dairəsi | Paylaşım sayı | Əhatə dairəsi | Paylaşım sayı |
| Facebook | 3,674,785 | 145 | 1,714,550 | 156 | 264,959 | 91 |
| Instagram | 2,324,814 | 144 | 1,030,228 | 156 | 187,000 | 91 |
| Linkedin | 82,162 | 144 | 5,010 | 156 | | 91 |
| Twitter | 5,489 | 144 | 3,100 | 156 | 2,670 | 91 |
| **Cəmi** | **6,087,250** | **577** | **2,752,888** | **624** | **454,629** | **364** |




| KARABAKH.CENTER HESABLARINDA PAYLAŞIMLARIN ƏHATƏ DAİRƏSİ | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2023 | | 2022 | | 2021 | |
| | Əhatə dairəsi | Paylaşım sayı | Əhatə dairəsi | Paylaşım sayı | Əhatə dairəsi | Paylaşım sayı |
| Facebook | 928,331 | 62 | 563,117 | 156 | 464,014 | 31 |
| Instagram | 559,028 | 62 | 287,244 | 156 | 226,512 | 31 |
| Twitter | 940 | 62 | 925 | 156 | 804 | 31 |
| **Cəmi** | **1,488,299** | **186** | **851,286** | **468** | **691,330** | **93** |



## Veb-saytlar üzrə statistik məlumatlar

| QARABAĞ DİRÇƏLİŞ FONDUNUN RƏSMİ VEB-SAYTI (QDF.GOV.AZ) | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ölkə | 2023 | | 2022 | | 2021 | |
| Azərbaycan | 29,429 | 91.40% | 40,774 | 94.16 % | 41,354 | 96.05 % |
| ABŞ | 1,655 | 5.14 % | 894 | 2.06 % | 548 | 1.27 % |
| Rusiya | 239 | 0.74 % | 180 | 0.42 % | 305 | 0.71 % |
| Türkiyə | 292 | 0.91 % | 355 | 0.82 % | 260 | 0.60 % |
| Digər* | 583 | 1.81 % | 1,099 | 2.54 % | 586 | 1.36 % |
| **Cəmi** | **32,198** | **100 %** | **43,302** | **100 %** | **43,053** | **100 %** |

*Qeyd: Hollandiya, Çin, Almaniya, İrlandiya, Böyük Britaniya, Avstriya, Kanada

| KARABAKH.CENTER VEB-SAYTI | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ölkə | 2023 | | 2022 | | 2021 | |
| Azərbaycan | 6,332 | 83.65 % | 4,682 | 79.61 % | 4,682 | 80.29 % |
| ABŞ | 267 | 3.53 % | 419 | 7.12 % | 272 | 4.66 % |
| Rusiya | 227 | 3.00 % | 163 | 2.77 % | 296 | 5.08 % |
| Türkiyə | 136 | 1.8 % | 125 | 2.13 % | 121 | 2.08 % |
| Ermənistan | 180 | 2.38 % | 88 | 1.5 % | 117 | 2.01 % |
| Fransa | 186 | 2.46 % | 107 | 1.82 % | 0 | 0.00 % |
| Digər* | 242 | 3.2 % | 297 | 5.05 % | 343 | 5.88 % |
| **Cəmi** | **7,570** | **100 %** | **5,881** | **100 %** | **5,831** | **100 %** |

*Qeyd: Almaniya, İspaniya, İrlandiya, Kanada, İsveç, Ukrayna, İtaliya, Hollandiya

## 5.2. “Karabakh.Center” internet resursu



“Karabakh.Center” internet resursu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb.

İnternet resursun çoxsaylı materialları konkret nümunələr əsasında Azərbaycan xalqının Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır.

Qarabağda dağıdılmış və ciddi ziyan dəymiş obyektlərin 10,000-dən çox fotoşəkli və video görüntüləri bu saytda yer alır.

Eyni zamanda “Karabakh.Center” internet resursunun materialları əsasında ermənilərin işğal altındakı ərazilərdə törətdikləri dağıntıları əks etdirən “Qarabağda urbisid” fotosərgisi müxtəlif məkanlarda təşkil olunub.

Qeyd edək ki, “Karabakh.Center” layihəsi çərçivəsində Vətən müharibəsi zamanı Ermənistan ordusunun raket hücumları nəticəsində həlak olan mülki əhalinin qurbanlarına həsr olunmuş www.KarabakhMemorial.com internet resursu yaradılıb. Layihənin təqdimatı 25 noyabr 2021-ci il tarixində raket hücumlarının qurbanlarının ailə üzvlərinin, ictimayyətin və dövlət rəsmilərinin iştirakı ilə Bakı şəhərində keçirilib.

5.1. saylı bənddə əks olunan kommunikasiya fəaliyyətinə əlavə olaraq “Karabakh.Center” internet resursunun müxtəlif tədbir və platformalarda təqdimatı həyata keçirilib (daha ətraflı aşağıda).

QR KODU SKAN ET,
**SAYTLA TANIŞ OL!**

| TƏDBİR | TARİX |
|---|---|
| Fairmont otelində “Karabakh.Center” internet resursunun təqdimat mərasimi və “Qarabağda Urbisid” fotosərgisinin nümayişi | 30 iyun 2021-ci il |
| İctimai simalar və KİV nümayəndələrinin iştirakı ilə “Landmark” biznes mərkəzində “Qarabağda Urbisid” fotosərgisinin nümayişi | 27 iyul 2021-ci il |
| Gənclik Mall, Port Baku Mall, Dəniz Mall, 28 Mall AVM-lərində “Qarabağda Urbisid” fotosərgisinin nümayişi | 1 oktyabr – 10 dekabr 2021-ci il |
| Bakı Expo Mərkəzində “Rebuild Karabakh” sərgisi çərçivəsində “Karabakh.Center” layihəsinin xüsusi stendinin təşkili və “Qarabağda Urbisid” fotosərgisinin nümayişi | 20-22 oktyabr 2021-ci il |
| 8-ci Qlobal Bakı Forumu çərçivəsində “Qarabağda Urbisid” fotosərgisinin nümayişi (Four Seasons Bakı oteli) | 4-6 noyabr 2021-ci il |
| “44 Günlük Zəfər Yolu” tədbiri çərçivəsində “Qarabağda Urbisid” fotosərgisinin nümayişi (ADA universiteti) | 5 noyabr 2021-ci il |
| Heydər Əliyev Beynəlxalq Hava Limanında “Qarabağda Urbisid” fotosərgisinin nümayişi | 16 noyabr – 16 dekabr 2021-ci il |
| Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, AİDA agentliyi və ADA universiteti tərəfindən təşkil edilən “Əcnəbi diplomatlar üçün Xarici Siyasət Proqramı” çərçivəsində QDF-in İdarə Heyətinin sədri R.Hacıyev tərəfindən “Qarabağda Urbisid” mövzusunda mühazirənin təqdim olunması | 10 iyun 2022-ci il |
| 2022-ci il tarixində Bakı Expo Mərkəzində keçirilən “Rebuild Karabakh” sərgisi çərçivəsində “Qarabağda Urbisid” fotosərgisinin təşkili (Bakı Expo Mərkəzi) | 19-21 oktyabr |
| “Qarabağda Urbisid” sərgisinin nümayişi donorlar və ictimaiyyətlə “Qarabağ Dirçəliş Fondunun Dostları” işgüzar platforma və “#KarabakhTalks” formatında keçirilən çoxsaylı görüşlər çərçivəsində təşkil olunub. | 2021-2023 |

| | |
|---|---|
| Metroda "Qarabağda Urbisid" fotosərgisinin təşkili | 13 yanvar - 16 iyul 2023-cü il |
| Bakının iri ticarət mərkəzlərində "Qarabağda Urbisid" fotosərgisinin təşkili | 26 aprel – 26 iyun 2023-cü il |
| Gəncədə keçirilən beynəlxalq elmi-praktiki konfransın iştirakçıları "Qarabağda Urbisid" fotosərgisinin nümayişi | 19 dekabr 2023-cü il |



"Karabakh.Center" internet resursunun təqdimat mərasimi

# 5.3. “Qarabağ Dirçəliş Fondunun Dostları” işgüzar platforması

Qarabağ Dirçəliş Fondu yarandığı gündən etibarən minlərlə həmvətənimiz, bir çox şirkətlər, iri sahibkarlar, dövlət qurumları həmrəylik nümayiş etdirərək Qarabağın bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə Fonda ianə edib.

Bu münasibətləri inkişaf etdirmək üçün Fond mövcud və potensial donorlar və tərəfdaşlarla mütəmadi olaraq görüşlər keçirir, onlarla daha sıx və səmərəli işgüzar münasibətlərin formalaşmasına xüsusi diqqət ayırır.

Həyata keçirilən tədbirlər və görüşlər eyni zamanda Fondun donor və tərəfdaşlarının sayının artması və ümumiyyətlə, ianəçiliyin təşviq olunmasına da öz töhfəsini verir.

Bu fəaliyyət “Qarabağ Dirçəliş Fondunun Dostları” işgüzar platforması formatında davam etdirilir.

Ümumilikdə, “Qarabağ Dirçəliş Fondunun Dostları” işgüzar platforması çərçivəsində keçirilən görüşlərdə Fondun donor və tərəfdaşlarının 500-dək nümayəndəsi (31.12.2023-cü il tarixinə) iştirak edib, 149 ianə və təşəkkür sertifikatı (31.12.2023-cü il tarixinə) təqdim olunub.

## “Qarabağ Dirçəliş Fondunun Dostları” işgüzar platforması çərçivəsində keçirilən görüşlər:

| TƏDBİRİN ADI | TARİX | QALEREYA | QR KOD |
|---|---|---|---|
| Qarabağ Dirçəliş Fondunun Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin üzvləri ilə görüşü | 08.09.2021 |  | |
| Azərbaycanda Amerika Ticarət palatası (AMCHAM) üzvlərinin iştirakı ilə “Ağdam rayonunun iqtisadi inkişaf potensialı” mövzusunda müzakirə görüşü | 28.09.2021 |  | |

| | | | |
|---|---|---|---|
| Qarabağ Dirçəliş Fondunun aparıcı biznes qurumları ilə görüşü | 07.10.2021 |  | |
| QDF və aparıcı şirkətlərin nümayəndələri arasında korporativ ianəçilik mədəniyyətinin təşviqi mövzusunda fikir mübadiləsi görüşü | 01.03.2022 |  | |
| “Yaşıl Qarabağ” ideyası mövzusunda işgüzar görüş | 15.04.2022 |  | |
| Azərbaycan banklarının rəhbərləri ilə Şuşada işgüzar görüş | 21.06.2022 |  | |
| Qarabağ Dirçəliş Fondu ilə donor və tərəfdaşların görüşü | 28.06.2022 |  | |
| Elm və təhsil nazirinin iştirakı ilə təhsil müəssisələri və donorlar arasında fikir mübadiləsi görüşü | 08.10.2022 |  | |
| Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyevin QDF-in donorları ilə fikir mübadiləsi görüşü | 25.11.2022 |  | |
| Qarabağ Dirçəliş Fondunun aparıcı biznes qurumları ilə görüşü | 09.06.2023 |   | |
| Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynovun QDF-in donorları ilə fikir mübadiləsi görüşü | 27.07.2023 |   | |
| “İşğaldan azad olunan ərazilərdə aparılan bərpa və yenidənqurma işlərində şəffaflığın və rəqabətliliyin təmin edilməsi” mövzusunda tədbir | 25.05.2023 |   | |

## 5.4. Maarifləndirmə

Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri də Qarabağa dəyən zərər, Qarabağda bərpa və yenidənqurma prosesi və Cənubi Qafqaz regionunda formalaşan yeni reallıqlarla bağlı məlumatları yerli və xarici ictimaiyyətə çatdırmaq, bununla da bərpa prosesində daha çox insanın iştirakçılığının təmin edilməsinə nail olmaqdır.

### “KarabakhTalks” müzakirə platforması

#Karabakh Talks.

İşğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində görülən işlərə cəmiyyətin bütün üzvlərinin dəstəyinin cəlb edilməsi, onların Qarabağa vurulan ziyanın həcmi barədə məlumatlandırılması və ianəçilik mədəniyyətinin təbliğ edilməsi məqsədilə Fond bir sıra maarifləndirici görüşlər təşkil edir. “KarabakhTalks” adı altında keçirilən görüşlərdə işğaldan azad edilmiş ərazilərə dəyən zərərlə yanaşı, Qarabağda aparılan bərpa və quruculuq işləri barədə həm yerli ictimaiyyət nümayəndələrinin, həm də xarici ölkə vətəndaşlarının məlumatlandırılması təmin olunub.

Ümumilikdə, “Karabakh Talks” müzakirə platforması çərçivəsində keçirilən görüşlərdə 2500-dək insan iştirak edib (31.12.2023-cü il tarixinə).

### “Karabakh Talks” müzakirə platforması çərçivəsində keçirilən görüşlər:

| TƏDBİRİN ADI | TARİX | QALEREYA | QR KOD |
|---|---|---|---|
| Rəhman Hacıyevin “Foreign MBA Club”un üzvləri ilə görüşü | 06.07.2021 |  | |
| Qarabağ Dirçəliş Fondunun Azərbaycanın xaricdəki səfirləri ilə birgə müzakirə sessiyası | 28.08.2021 |  | |
| Qarabağ Dirçəliş Fondu ilə gənclər arasında “Qarabağı anlayaraq dirçəldək!” mövzusunda görüş | 14.09.2021 |  | |

| | | | |
|---|---|---|---|
| Qarabağ Dirçəliş Fondunun Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri ilə görüşü | 24.09.2021 |  | |
| Qarabağda ətraf mühitə vurulmuş zərərin aradan qaldırılması və ekoloji tarazlığın bərpasına həsr olunan fikir mübadiləsi görüşü | 08.10.2021 |  | |
| "Yüksəliş" müsabiqəsinin qalib və finalçıları ilə fikir mübadiləsi görüşü | 13.11.2021 |  | |
| Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədrinin AmCham Azərbaycan üzvləri ilə görüşü | 30.03.2022 |  | |
| Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədrinin Ədliyyə Nazirliyində gənc ədliyyə işçiləri və könüllüləri ilə görüşü | 02.02.2022 |  | |
| Rəhman Hacıyevin əcnəbi diplomatlarla görüşü | 10.06.2022 |  | |
| Rəhman Hacıyevin xarici ölkələrin gəncləri ilə görüşü | 28.09.2022 |  | |
| Bakı Ali Neft Məktəbinin (BANM) tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş | 13.10.2022 |  | |
| "Rebuild Karabakh-2022" sərgisi çərçivəsində məktəblilər və gənclərlə maarifləndirmə görüşü | 19.10.2022 |  | |
| Bakı Dövlət Universitetinin (BDU) tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş | 11.11.2022 |  | |
| Azərbaycan Dillər Universitetinin (ADU) tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş | 16.12.2022 |  | |
| Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş | 03.03.2023 |  | |
| Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbələri ilə "Qarabağın dirçəlişində həmrəyliyin rolu" mövzusunda görüş | 28.09.2023. |  | |

## “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” mövzusunda I beynəlxalq elmi-praktik konfrans




2021-ci il 16-17 sentyabr tarixlərində Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə xüsusi nümayəndəliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Qarabağ Dirçəliş Fondu və AMEA İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” mövzusunda I Beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransın əsas məqsədi Ağdam rayonunda və bütövlükdə Qarabağda dayanıqlı və davamlı iqtisadi inkişaf modelinin, habelə yaşıl enerji, ağıllı şəhərlərin qurulması və digər smart texnologiyaların tətbiqinə dair mümkün metodları müzakirə etmək idi.

Konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfransının iştirakçılarına müraciəti səsləndirilib.

100-dən artıq elmi məqalənin təqdim olunduğu konfransda Qarabağda yeni iqtisadiyyat quruculuğu, iqtisadçı alimlərin tədqiqatlarının bu baxımdan əhəmiyyəti, Qarabağın təbii resursları və yaşıl enerji potensialı, məcburi köçkünlərin Ağdama və Qarabağın digər bölgələrinə qayıdışı məsələləri və digər mövzular ətrafında geniş fikir mübadilələri aparılıb.

Qeyd edək ki, sözügedən konfransın əhəmiyyəti nəzərə alınaraq onun materialları kitab şəklində çap edilib.

## Zəngilanda “Su ehtiyatlarının davamlı idarə edilməsində tərəfdaşlığın və fəaliyyətin təşviq edilməsi” mövzusunda beynəlxalq konfrans



29 iyun 2022-ci il tarixində Zəngilan rayonunun Ağalı kəndindəki “Ağıllı kənd” yaşayış massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının və Qarabağ Dirçəliş Fondunun dəstəyi ilə “Su ehtiyatlarının davamlı idarə edilməsində tərəfdaşlığın və fəaliyyətin təşviq edilməsi” mövzusunda beynəlxalq konfrans keçirilib.

Tədbirdə uzun müddət davam edən işğal nəticəsində Qarabağın ekoloji tarazlığının pozulması, xüsusən də su mənbələrinin çirkləndirilməsi, su ehtiyatları sahəsində davamlı inkişafın məqsəd və hədəflərinə nail olmaq üçün səylərin səfərbər edilməsi, bu məsələnin qlobal və regional həlli məqsədilə beynəlxalq səviyyədə dialoqun yaradılması, transsərhəd kontekstdə tərəfdaşlığın qurulması kimi aktual istiqamətlər müzakirə mövzusu olub.

Konfransda Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qasımova, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko, BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Olga Algayerova, BMT-nin Su Konvensiyasının katibi Sonja Koeppel, BMT-nin Ətraf Mühit Proqramının Avropa ofisinin direktoru Bruno Pozzi, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevlə yanaşı 60 nəfərdən çox yerli və beynəlxalq nümayəndə iştirak etmişdir.

Konfransın sonunda, 30 iyun tarixində Estoniyada keçiriləcək Su Konvensiyası ilə bağlı tədbirə töhfə olacaq nəticə sənədi qəbul olunub.

## "Rebuild Karabakh 2022" sərgisində iştirak



Qarabağ Dirçəliş Fondu 2022-ci il 19-21 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində ikinci dəfə təşkil olunan "Rebuild Karabakh 2022" sərgisində uğurla iştirak edib.

"Rebuild Karabakh 2022" sərgisində özünün fəaliyyəti, həyata keçirdiyi və dəstəklədiyi layihələr, fəaliyyətinin prioritet istiqamətləri və bir sıra yenilikləri təqdim edən Fondun stendini 2 mindən artıq insan ziyarət edib. Nəticədə Fond təşkilatçılar tərəfindən "Ən çox ziyarət olunan stend" nominasiyası üzrə təltif olunub.

Müxtəlif yaş kateqoriyasından olan sərgi ziyarətçilərindən 10 nəfərə Qarabağın möhtəşəm abidələrinin rəsmlərindən ibarət olan "Qarabağın inciləri" puzzle oyununda ən çox xal yığaraq üzərində Qarabağın simvolları təsvir olunduğu "Incredible Karabakh" t-shirt kolleksiyasından hədiyyə təqdim olunub.

Bundan əlavə sərgi zamanı ermənilərin işğal altındakı ərazilərdə törətdikləri dağıntıları əks etdirən "Qarabağda Urbisid" fotosərgisi nümayiş olunub, eləcə də məktəblilərin və gənclərin iştirakı ilə "Xeyriyyə təşəbbüslərinə qoşulmaq bizə nə qazandırır?" mövzusunda müzakirə görüşü keçirilib.

Qeyd olunmalıdır ki, 8 oktyabr 2021-ci il tarixində Qarabağ Dirçəliş Fondu ilə "Caspian Event Organisers" MMC arasında əməkdaşlığa dair **"Anlaşma Memorandumu"** imzalanıb. Memoranduma uyğun olaraq sərginin qeydiyyat haqlarından əldə olunan gəlirin bir hissəsi – 20,323.16 manatı sərginin təşkilatçısı olan "Caspian Event Organizers" şirkəti tərəfindən işğaldan azad olunan ərazilərin bərpasına dəstək olmaq məqsədilə QDF-ə ianə olunub.

## "Rebuild Karabakh 2023" sərgisində iştirak




Qarabağ Dirçəliş Fondu 2023-cü il 19-21 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində üçüncü dəfə təşkil olunan **"Rebuild Karabakh 2023"** sərgisində uğurla iştirak edib.

Sərgi iştirakçıları Qarabağ Dirçəliş Fondunun sifarişi və maliyyə dəstəyi ilə Füzuli şəhərində salınacaq Füzuli Mərkəzi Parkına dair xüsusi stendini ziyarət edərək sözügedən parkın üçölçülü (3D) Baş planı ilə interaktiv xəritəsi üzərində virtual olaraq tanış olmaq, eləcə də Fondun fəaliyyəti, həyata keçirdiyi bərpa və yenidənqurma layihələri ilə bağlı məlumat almaq imkanı əldə ediblər. Qarabağ Dirçəliş Fondunun sərgidə təqdim etdiyi Qarabağın abidələrinə həsr olunan pazl oyunu da ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərgi çərçivəsində Qarabağ Dirçəliş Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan televiziyasının İctimai-siyasi proqramlar Studiyasının hazırladığı **"Əsas məsələ"** verilişinin xüsusi buraxılışı 3-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı Sərgisinin **("Rebuild**

**Karabakh – 2023")** pavilyonunda aparılıb. Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rüfət Həmzəyevin aparıcılığı ilə baş tutan verilişdə Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, millət vəkilləri Nigar Arpadarai və Tural Gəncəliyev iştirak ediblər.

Bundan əlavə, sərgi çərçivəsində Qarabağ Dirçəliş Fondunun təşkilatçılığı ilə müxtəlif dövlət qurumlarının rəhbər şəxslərinin və ekspertlərin iştirak etdiyi "İşğaldan azad olunmuş ərazilərə əhalinin geri qayıdışı, daha yaxşı quruculuq" və "İşğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası" mövzularında iki panel görüşü keçirilib.

Qeyd edək ki, 8 oktyabr 2021-ci il tarixində Qarabağ Dirçəliş Fondu ilə **"Caspian Event Organisers"** MMC arasında imzalanan əməkdaşlığa dair **"Anlaşma Memorandumu"**na uyğun olaraq sərgidən əldə olunan gəlirin bir hissəsi – 33.300 manatı işğaldan azad olunan ərazilərin bərpasına dəstək olmaq məqsədilə QDF-ə ianə olunub.

## "Bakı Marafonu" 2023




2023-cü il 7 may tarixində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə növbəti dəfə Bakı Marafonu keçirilib.

Qarabağ Dirçəliş Fondu "Küləyə qalib gəl" şüarı altında təşkil olunan marafonda tərəfdaş qismində iştirak edib.

Marafon qaliblərinin mükafatlandırma mərasimində iştirak edən Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev qaliblərin adından "Bakı Marafonu" Təşkilat Komitəsinə xüsusi ağac ianə sertifikatı təqdim edib.

QDF tərəfindən Marafonun fan zonasında "Marafon bağı" adlı xüsusi yaşıl pavilyon yaradılıb. Xüsusi tərtibatla hazırlanan pavilyon vətəndaşlar tərəfindən böyük maraqla qarşılanıb.

Pavilyonu ziyarət edən ictimaiyyət nümayəndələrinə işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzura vurulan zərərin miqyası, işğaldan azad edilən ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma layihələri və Fondun fəaliyyəti ilə bağlı geniş məlumat verilib.

Eyni zamanda ziyarətçilər stenddə quraşdırılan ödəniş terminalı və smartfonlar vasitəsilə Qarabağda "Marafon bağı"nın salınmasına dəstək olmaq üçün ağac ianə ediblər. İanə edən şəxslərə xüsusi "İanə Sertifikat"ları da təqdim olunub.

Qaçışda Bakı Marafon Klubunun 50-dən çox üzvü də QDF adından iştirak edib. Belə ki, Klubun komandası Qarabağ Dirçəliş Fondunun əməkdaşları ilə birgə Fondun adından "Qarabağ üçün qalib ol!" şüarı ilə mübarizə aparıb.

Qeyd olunmalıdır ki, Qarabağ Dirçəliş Fondu və Fondun donoru "Stevedoring" şirkətinin maliyyə dəstəyi hesabına "Bakı Marafonu – 2023" qalibləri adından Qarabağda "Marafon bağı"nın salınması nəzərdə tutulur. Bağın ərazisində 1500-dən artıq ağac əkiləcək və onların dayanıqlılığının təmin olunması üçün müasir suvarma sistemi quraşdırılacaq.

QDF-in təşkilatçılığı ilə may ayının sonunda "Bakı Marafonu – 2023"ün qalibləri "Marafon bağı"nın salınacağı ərazi ilə tanış olmaq üçün Füzuli şəhərinə və işğaldan azad olunan digər ərazilərə səfər ediblər.

## QDF-in Milli Şəhərsalma Forumunda iştirakı




29 sentyabr - 1 oktyabr tarixlərində 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu, həmçinin oktyabrın 2-də Ümumdünya Məskunlaşma Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Qarabağ Dirçəliş Fondu Füzuli Mərkəzi Parkına dair xüsusi stendlə iştirak edib.Rəqəmsal formatda təqdim edilən stend yerli və xarici qonaqlar tərəfindən böyük maraqla qarşılanıb. Stenddə interaktiv monitorlar vasitəsilə ziyarətçilərə Füzuli Mərkəzi Parkının üçölçülü (3D) Baş planı virtual olaraq nümayiş etdirilib.

Qonaqlar Füzuli Mərkəzi Parkında salınması nəzərdə tutulan təbii yaşıllıq ərazisi və guşələr, festival düzü, amfiteatr, piknik və düşərgə ərazisi, böyük uşaq meydançası və labirint, kiçik uşaq meydançası və karusel, uşaqlar üçün multifunksional meydança, açıq havada idman meydançası, açıq havada fudkort və digər obyektlərlə parkın interaktiv xəritəsi üzərində tanış olmaq imkanı əldə ediblər.

Stendlə tanışlıq zamanı Fondun əməkdaşları qonaqların çoxsaylı suallarını cavablandırmaqla yanaşı, QDF-in fəaliyyəti və həyata keçirdiyi layihələrlə bağlı müxtəlif məlumat xarakterli materiallar nümayiş etdiriblər. Eyni zamanda şəhər sakinləri, yerli və xarici qonaqlar üçün Füzuli rayonunun mədəni-tarixi irsi barədə müxtəlif maarifləndirici məlumatların park ərazisində də yerləşdirilməsinin nəzərdə tutulduğunu qeyd ediblər.

Stendi ziyarət edən şəxslərə Füzuli Mərkəzi Parkı ilə bağlı məlumatların yer aldığı broşürlər də təqdim edilib.

## "Azərbaycanın gənc quruculari" layihəsi

2023-cü ilin 6 iyun tarixində ADA Universitetində Qazax Müəllimlər Seminariyası / ADA Universiteti Qazax Mərkəzinin təşəbbüsü və təşkilatçılığı, Qarabağ Dirçəliş Fondu və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə "Azərbaycanın gənc quruculari" adlı ilk layihə əsaslı öyrənmə olimpiadasının final mərasimi keçirilib.
"Qarabağın bərpası şagirdlərin gözü ilə" şüarı




altında keçirilən olimpiadada Bakı və Sumqayıt şəhərləri istisna olmaqla, Azərbaycanın 37 şəhər və rayonundan 5-7 nəfərdən ibarət komandalar şəklində ümumilikdə 735 şagird işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində hazırladıqları layihələri təqdim ediblər.

Final mərhələsinə vəsiqə qazanan 5 komanda layihəsinin video xülasəsini təqdim etdikdən sonra qaliblərin adları açıqlanıb, onlara sertifikat və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkilib.

Birinci yerə Şəki şəhər Kimya təmayüllü liseyin "Çapar", ikinci yerə Yevlax şəhəri Səməd Vurğun adına məktəbin "Fi", üçüncü yerə Laçının Taxtakörpü qəsəbə tam orta məktəbinin "Qayıdış", dördüncü yerə Nail İbrahimli adına Oğuz şəhər 3 nömrəli məktəbin "Qarabağnamə", beşinci yerə isə Gəncə şəhər fizika, riyaziyyat və informatika təmayüllü məktəbin "Ultimate" layihələri layiq görülüb.

Sonda məktəblilər üçün ADA Universitetində kampus turu təşkil edilib.
Qeyd edək ki, "Azərbaycanın gənc quruculari" olimpiadasının məqsədi şagirdlərin layihə əsaslı biliklərə yiyələnməsinin təmin edilməsi, onları Qarabağla bağlı bilikləri təcrübədə istifadə etmələrinə təşviq etmək, eləcə də

onların araşdırma və təqdimat bacarıqlarının, dəyərləndirmə və yaradıcılıq təfəkkürlərinin inkişafına dəstək olmaqdır.

## "Ağac ianə et" layihəsi




Fond işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində ekoloji terrorun nəticələrinin aradan qaldırılması məqsədilə 2021-ci ildən etibarən ağac ianə etmə kampaniyalarına start verib.

2021-ci ildə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qarabağ Dirçəliş Fondu (QDF) arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində icra olunan "Zəngilan rayonunda meşə örtüyünün bərpası" layihəsi, eləcə də 2022-ci və 2023-cü illərdə əlamətdar günlər münasibətilə "Ağac ianə et" kampaniyası təqdim edilib.

Əlamətdar günlər münasibətilə tərtib olunmuş "Ağac ianə et" kampaniyası Novruz bayramı, 8 mart – Beynəlxalq Qadınlar Günü, 28 May – Müstəqillik Günü, Bilik Günü, Zəfər Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ağac ianə etmək imkanı yaradılıb və unikal "İanə sertifikatı" hazırlanıb.
Ağac ianə etmək üçün Fondun veb səhifəsinə (https://qdf.gov.az/iane-imkanlari/ kartla-iane/#tree) daxil olub istər öz, istərsə də təbrik etmək istədiyiniz şəxsin adını qeyd edib ianə etmək kifayətdir.

Ümumilikdə, 2023-cü ilin 31 dekabr tarixinə qədər Fonda 85.751 ağac ianə edilib. Bundan əldə edilən ianə məbləği isə toplam 857.510 AZN təşkil edib.

## Sorğu layihəsi




Qarabağ Dirçəliş Fondu vətəndaşların ümumilikdə xeyriyyəçiliyə və xüsusən işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulmasına dəstəyin verilməsinə münasibətini və mövqelərini müəyyənləşdirmək məqsədilə mövcud və potensial donorlar (ianəçilər) arasında sorğu layihəsi həyata keçirib.

18.10.2022-ci il tarixində start verilən sorğuya 01.08.2023-cü il tarixində yekun vurulub. Bu müddət ərzində sorğuda ümumilikdə 7753 nəfər iştirak edib.

Sorğunun aralıq nəticələri Fonda ən perspektivli hədəf auditoriyasını müəyyən etməyə, lazımi ismarışları daha aydın şəkildə formalaşdırmağa və effektiv kommunikasiya ilə bərabər ianələrin cəlb edilməsi sahəsində fəaliyyəti təkmilləşdirməyə imkan verib.

# 5.5. "Qarabağ Gecəsi" xeyriyyə konsertləri

### "Qarabağ Gecəsi"

Bakı-2022



2022-ci il iyunun 26-da Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə Qarabağ Dirçəliş Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi, "Avrora Qrup"un baş sponsorluğu, "İTALDIZAYN" QSC-nin sponsorluğu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin informasiya dəstəyi ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində "Qarabağ gecəsi" adlı xeyriyyə konserti keçirilib.

Konsertdə Vətən müharibəsi qaziləri, hökumət rəsmiləri, Qarabağ Dirçəliş Fonduna ianə edərək işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək göstərən donor şirkətlərin və Fondun tərəfdaşlarının nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri qonaq qismində iştirak ediblər.

Ü.Hacıbəylinin "Koroğlu" operasından Uvertüra ilə başlayan və Qarabağ musiqisinin simvoluna çevrilmiş "Qarabağ şikəstəsi" ilə bitən konsert proqramında dinləyicilərə 14 musiqi nömrəsi təqdim olunub.

Konsertin ərsəyə gəlməsində həmrəylik nümayiş etdirərək dəstək olan donor və tərəfdaşlara Fondun 23 ədəd "Təşəkkür Sertifikatı" verilib.

Konsertdən, sponsorlar və bilet satışından– 171,257 manat vəsait toplanıb. Toplanan vəsait hesabına Şuşa şəhərində yerləşən mədəniyyət müəssisələrindən birinə yüksək keyfiyyətli royalın alınması nəzərdə tutulur.

### "Qarabağ Gecəsi"

Gəncə-2023




17 iyun 2023-cü il tarixində Gəncə şəhərində Qarabağ Dirçəliş Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi, Veysəloğlu Şirkətlər Qrupunun baş sponsorluğu ilə "Qarabağ gecəsi" adlı xeyriyyə konserti keçirilib.

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında baş tutan konsertdə şəhid və qazi ailələri, hökumət rəsmiləri, millət vəkilləri, Qarabağ Dirçəliş Fonduna ianə edərək işğaldan azad edilən ərazilərin bərpası istiqamətində görülən işlərə dəstək göstərən donor şirkətlərin və Fondun tərəfdaşlarının nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, eləcə də Gəncə şəhərinin sakinləri iştirak ediblər.

Mədəniyyət televiziyası ilə canlı yayımlanan konsertdə Xalq artistləri Azər Zeynalov, Teyyub Aslanov, Simarə İmanova, Əməkdar artistlər Gülüstan Əliyeva, Aybəniz Haşımova, Nuriyyə Hüseynova, Sevinc Sarıyeva, solistlər Vəfa Vəzirova, Taleh Yəhyayev, Fəxri Kazım-Nicat, Cəlal Kərimov, Nurlana Abdullayeva, F.Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və Ansamblın instrumental heyəti, eləcə də "Sənət Akademiyası"nın tələbələri çıxış ediblər. Dinləyicilərə ümumilikdə 17 musiqi nömrəsi təqdim olunub.

Anşlaqla keçən konsertin bədii hissəsindən sonra tədbir rəsmi ziyafətlə davam edib. Rəsmi ziyafətdə bilet əldə edərək konsertin keçirilməsinə öz töhfələrini verən donorlara Fondun "Təşəkkür Sertifikatı" təqdim olunub.

Qeyd edək ki, konsertdən əldə edilən 140.220 manat vəsait Ağdam rayonunun ərazisində yerləşən Pənahəli xanın İmarət kompleksinin bərpasına yönəldiləcək.

Qarabağ
Dirçəliş
Fondu

06

# TƏRƏFDAŞLIQ

Qarabağ Dirçəliş Fondu müxtəlif dövlət strukturları, eləcə də yerli və xarici fərdi və korporativ investorlarla əlaqələr və tərəfdaşlıqlar qurmaqla işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə əlavə resursların cəlb edilməsini təmin edir.

Bu məqsədlə imzalanan anlaşma memorandumları və "Qarabağ Dirçəliş Fondunun Dostları" işgüzar platforması şəbəkəsi vasitəsi ilə müxtəlif qurumlarla faydalı münasibətlər qurulub.

| **ANLAŞMA MEMORANDUMLARI** | |
|---|---|
| Adı | Tarix |
| Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə Qarabağ Dirçəliş Fondu (QDF) arasında "Anlaşma Memorandumu" | 13 sentyabr 2021-ci il |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında "Anlaşma Memorandumu" | 23 sentyabr 2021-ci il |
| Qarabağ Dirçəliş Fondu ilə "Caspian Event Organisers" MMC arasında "Anlaşma Memorandumu" | 8 oktyabr 2021-ci il |
| Azərbaycan Banklar Assosiasiyası ilə Qarabağ Dirçəliş Fondu arasında "Anlaşma Memorandumu" | 11 oktyabr 2021-ci il |
| Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında əməkdaşlığa dair "Anlaşma Memorandu" | 7 aprel 2022-ci il |
| Elm və Təhsil Nazirliyi ilə Qarabağ Dirçəliş Fondu arasında əməkdaşlığa dair "Anlaşma Memorandumu" | 18 aprel 2022-ci il |
| Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Qarabağ Dirçəliş Fondu arasında əməkdaşlığa dair "Anlaşma Memorandumu" | 25 may 2022-ci il |
| Qarabağ Dirçəliş Fondu ilə "Azerlotereya" ASC arasında əməkdaşlığa dair "Anlaşma Memorandumu" | 1 noyabr 2023-cü il |

Qarabağ
Dirçəliş
Fondu

Cəfər Cabbarlı küç. 609,
Globus Center

(+994 12) 597 5535

info@qdf.gov.az